UNİKAL

№38 (2172) 13 oktyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Monopolist məmurlar hədəfdə: Şəxsi biznes kanalları bağlanır



Səh.7

## Fuad Nağıyevin heyrətamiz proqnozu

*Bu günlərdə Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyev Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) bir illik fəaliyyətinə həsr edilmiş hesabat tədbirində çıxışı zamanı Azərbaycana gələn xarici turistlərin sayının 2026-cı ilədək 4 milyona, yerli turistlərin sayının isə 6 milyona çatdırılması planlaşdırıldığını açıqladı. Onun sözlərinə görə, qarşıdakı 4 ildə ümumi daxili məhsulda (ÜDM) turizm sektorunun payını 2019-cu ilə nisbətən 1,5 dəfə artırılması gözlənilir. Sitat: "Ümumilikdə isə hər il ÜDM-də turizm sektorunun payını 20 % artırmağı düşünürük. Həmçinin turistlərin xərcləmələrinin də artaraq 10 milyard manata çatdırılması planlaşdırılır. Bütün bunlara nail olmaq üçün ATAA-nın üzərinə də çox böyük məsuliyyət düşür. Ümid edirəm ki, biz birlikdə bu nəticələrə nail olacağıq".*

Səh.5

## "Azərbaycan rus əsgərlərinin ərazimizdən çıxarılmasını tələb etməlidir"



*Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu "Unikal"a müsahibə verib. O, Yaxın Şərqdə başlayan toqquşmanın İsrail-İran müharibəsinə səbəb olma ehtimalından, bu müharibənin bizim regiona hansı təsirlərinin olacağından, sülhməramlıların nə zaman Qarabağdan gedəcəyindən və başqa...*

Səh.4

## "Prezident Aparatının şöbə müdirləri çevriliş etmək istəyirdilər" - Deputat



*"Prezident İlham Əliyevin hakimiyyətdə olduğu və ondan əvvəlki müddət hamar olmayıb. Çünki Heydər Əliyevin oğlu olmaq həm şərəfli, həm də məsuliyyətlidir". "Unikal" xəbər verir ki, bunu deputat Siyavuş Novruzov parlamentin bu gün keçirilən xüsusi iclasında çıxışı zamanı deyib.*

Səh.8

## "Xankəndidə İlham Əliyevin adına məscid tikilsin" - Qüdrət Həsənquliyev



*"Xankəndidə İlham Əliyevin adını daşıyan məscid inşa olunsun". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin deputatı Qüdrət Həsənquliyev İlham Əliyevin Prezident seçilməsinin 20-ci ildönümünə həsr olunmuş xüsusi iclasda bildirib. "Prezident İlham Əliyevin adını əbədiləşdirmək üçün...*

Səh.7

# Əməkdar artist efirdəki biabırçılıqdan danışdı: “Onların abırı-həyası yoxdur”

***Müğənni Nüşabə Musayevanın ”Bizimləsən” verilişində doğma xalası haqda verdiyi açıqlamalar gündəmi alt-üst etdi.***

“Unikal” yenisabah.az-a istinadən xəbər verir ki, ifaçı canlı efir zamanı atasının anasına xalası ilə xəyanət etdiyini açıqlayıb. Daha sonra verişildə üz-üzə gətirilən qohumlar qarşıdurma yaşayıblar. İfaçının xalası deyilənlərin tamamilə yalan olduğunu bildirib. O, canlı efirdə Nüşabəni ögey atası ilə yataqda gördüyünü iddia edib.

Sözügedən kadrlar isə sosial şəbəkələrdə qısa zaman ərzində paylaşılıb və sərt tənqidlə qarşılanıb. Tez-tez hansısa verilişdə efirə yaraşmayan söhbətlərin, müzakirələrin getməsi məsələsi yenidən aktuallaşıb.



Məsələ ilə bağlı Yenisabah.az-a danışan Əməkdar artist Gülşad Baxşiyeva şəxsi məslələrin efirdə, hər kəsin gözü önündə danışılmasının əleyhinə olduğunu bildirib: ”Bu mövzuda bayağı, bütün həyatını çılpaqlığı ilə efirə, səhnəyə daşıyanlar niyə danışmır? Onlar niyə şkaflarında neçə paltarları olduğunu, bütün şəxsi həyatlarını gündəmə gətirirlər bilmirəm. Gizlin qalmalı şeylər elə gizlin qalmalıdır. Bir məsəl var: Adam yediyini deməz. Yəqin ki, bizlər Nuh əyyamından qalmışıq. Amma biz bu cür şəxsi məsələləri həmişə gizli saxlamışıq. İndi başqa bir dövr gəlib, hamı nə edirsə, dəqiqəsinə, saniyəsinə qədər çıxıb danışır. Düşünürəm ki, onların abrı da, həyası da yoxdur”.

Aktrisanın sözlərinə görə, bəzi şeylərin gizli qalması daha məqsədəuyğundur. O, hər şeyi açıb-ağardan sənətçiləri sərt şəkildə tənqid edib: ”O vaxt, bizim dövrümüzdə məşhurlarla bağlı şeylər gizli qalırdı. Çünki o vaxt ”İnstagram”, digər sosial şəbəkələr, saytlar yox idi. Nə olurdusa, teatrın daxilində olurdu və kənara çıxmırdı. Amma bu gün biri asqıranda bunu bütün ölkə bilir. Çünki həmin ”məşhur” asqırdığını da ”İnstagram”da yazır ki, əziz izləyicilər, mən bu gün yuxudan oyandım və iki dəfə asqırdım. Bunu etmək lazım deyil, hər şeyin gizli qalması daha məsləhətdir. Bu zaman izləyiciyə də maraqlı olursan. Bizim dövrümüzdə də çox şeylər olub, amma o ”mətbəx”dən qırağa çıxmayıb. İndi isə hamı deyir ki, mən beləyəm, danışıram, əcəb edirəm, yaxşı edirəm. Bu cür cəmiyyət təbii ki, zamanla pozğunluğa doğru gedəcək. Abır-həya itəndən sonra geriyə heç nə qalmır. Bir az müşahidə kifayət edər ki, artıq bu cür olduğunu görək. Biz dünya şöhrətli müğənnilərə, aktrisalara da baxırıq. Onlar hər zaman sadəliyi ilə diqqət çəkiblər. Makiyajları, estetik əməliyyatları sadədir, təbiiliklərini qoruyub saxlayırlar, lakin bizdə hər şey sanki göstəriş üçündür. Niyəsini isə anlamıram. Özüm elə adam olmadığım üçün digərlərinin niyə bu cür etdiyinin də cavabını bilmirəm, açığı, heç bilmək də istəmirəm. Mən yerli telekanallara belə baxmıram, yalnız xəbərləri izləyirəm. Telekanallarımızda gedən verilişlərdəki danışıqlara qulaq asmıram, müzakirələri izləmirəm”.

# "Robotlar, "kuklalar" kimi yaşayırıq, insan kimi yox" - Nura Suri

***”İnsanların ”azadlıq” sözünü unutması zamanıdır. Azad düşüncə belə mövcudluğunu itirib. Hər kəs tam nəzarət altındadır. Hər yer kamera, əlimizdəki telefonlar gündə neçə addım atdığımızdan tutmuş, kiminlə harada olduğumuza kimi bilir və sistemə ötürür”.***



”Unikal” xəbər verir ki, bu sözləri müğənni Nura Suri sosial şəbəkədə bildirib. Sənətçi sosial şəbəkə və internetin gücündən bəhs edib: ”Sosial şəbəkələrdə səhifələri qarşımıza çıxararaq, beynimizdə fikir formalaşdırmaq 2x2 kimi asandır. Bizi özümüzdən daha yaxşı tanıyır bu sistem. İnsanlar bir-birinə etibarını itirib, çünki danışanda səsimizin kimsə tərəfindən yazılıb, yazılmadığına belə əmin deyilik. Əvvəllər insanlara nəyi etmək olar, olmaz deyilirdi (din, qanun və s.). İndi bizi idarə etmək üçün nə dinə, nə qanuna ehtiyac qalıb. Nəğd pul da aktuallığını itirdiyinə görə kim nə qədər qazanır, nə qədər və hara xərcləyir artıq məlumdur. Hamının zəif yeri, səhvi, sirri, hər şeyi məlumdur. Gizli heç nə qalmayıb. Tam sistemə tabeyik. Bütün dünya belədir və daha betəri olacaq.

Robotlar, ”kuklalar” kimi yaşayırıq, insan kimi yox. Çünki insan həm bu dünyanı, həm də insanlığı məhv etməyi bacardı. Heyvanlara, təbiətə, insanlara verdiyi əziyyətin bəhrəsidir bu. Deyəsən, şeytan haqlı çıxdı”.



# "Həyatda yalnız bir xoşbəxtlik var..." - Xalq artistinin qızı

***Xalq artisti Mələkxanım Əyyubovanın bloger qızı Nəzrin Nəcəfova bir neçə gün əvvəl baş tutmuş nişanından fotolar paylaşıb.***

“Unikal” xəbər verir ki, xanəndənin qızı paylaşımına “həyatda yalnız bir xoşbəxtlik var: sevmək və sevilmək” yazıb.

Qeyd edək ki, Nəzrin müğənni Mərdan Kazımovla nişanlanıb.

# "Nanə yaxşı edir, robotlara xına yaxdırır" - Nazilə Səfərli

***Şairə Nazilə Səfərli aparıcı Nanə Ağamalıyevanın verilişində robota xınayaxdı etməsi ilə bağlı açıqlama verib.***

“Unikal”ın məlumatına görə, Nazilə Səfərli bunun simvolik olduğunu bildirib: “Guya görünməmiş hadisə baş verib. Bütün qız uşaqlarına kukla almırsız? Kuklaya toy edir, yemək bişirir, ev qurur. Robot da bir kukladır. Robotu görəndə dedim buna mahnı oxuyum. Adama uşaq olmağı da qadağan edirsiniz. Bəsdirin! Nanə sizə haqq edir. Yaxşı edir robotlara xına yaxdırır. Heç xına da yaxmamışıq. Sadəcə, təbliğ etmişik ki, sən robotsan, sənin əlin xına götürməz”.



# "Prezident Aparatının şöbə müdirləri çevriliş etmək istəyirdilər" - Deputat

***"Prezident İlham Əliyevin hakimiyyətdə olduğu və ondan əvvəlki müddət hamar olmayıb. Çünki Heydər Əliyevin oğlu olmaq həm şərəfli, həm də məsuliyyətlidir".***

"Unikal" xəbər verir ki, bunu deputat Siyavuş Novruzov parlamentin bu gün keçirilən xüsusi iclasında çıxışı zamanı deyib.

"Prezident İlham Əliyevə qarşı olan haqsızlıqların çoxunu bilirik. Hələ o vaxt Heydər Əliyevə qarşı Qorbaçov və ətrafında olan ermənilərin ən ağrı zərbələrini məhz Prezident alıb. Demokratiya qırıntıları Heydər Əliyevin oğlu olduğuna görə İlham Əliyevin Naxçıvana getməsinin qarşısını alırdılar. Bax, bu cür ağrılı və əziyyətli proseslərdən keçib", - deputat bildirib.

O qeyd edib ki, Prezident İlham Əliyev 5 dövlət çevrilişinə cəhdin qarşısının alınmasında Ulu öndərlə çiyinə-çiyinə çalışıb:

"Bundan başqa, 2003-cü ildəki seçkidən sonra AXCP-Müsavat dəstəsi Azadlıq meydanına tökülüşdülər. Şüşələri sındırıb, maşınları əzirdilər. O zaman da İlham Əliyevin qətiyyəti nəticəsində çevrilişə cəhdlərin qarşısı alındı. Həmçinin, dövlətimizin çörəyini yeyən Prezident Aparatının şöbə müdirləri və digər şəxslər çevriliş etmək istəyirdilər. Cənab Prezidentin qətiyyəti nəticəsində çevrilişlərin qarşısı alındı. Sonrakı dövrlərdə də İlham Əliyev Azərbaycana qarşı təxribat aparanların qarşısını aldı və nəticə qələb ilə başa çatdı. Bir sözlə, Prezidentin bütün gördüyü işlər Ümummilli lider Heydər Əliyevin siyasi xəttidir. 1920-ci ildən bu yana kimsə xalqın lideri hesab olunmayıb. Xalqın ümummilli lideri Heydər Əliyev, lideri isə İlham Əliyevdir".

***Anar Kəlbiyev***

# "Fransanın qarnına sancı dolub, min oyundan çıxır" - Fəzail İbrahimli



***"Bu gün Azərbaycan dünya dövlət siyasətinin boy sırasında nəinki uca görünən, sözü, fikri, qəti mövqeyi olan ölkəmiz var. İlham Əliyev o zaman üçün bataqlıqda olan dövlətimizi bu gün dünyanın ən yüksək səviyyəsinə qaldıra bildi".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclis sədrinin müavini Fəzail İbrahimli parlamentin bu gün keçirilən xüsusi iclasında çıxışı zamanı deyib. Vitse-spiker bildirib ki, 20 illik tarixin zirvəsi Vətən müharibəsindəki qələbə, tacı isə antiterror tədbirləri oldu:

"Tarixdə tərcümeyi-halımızın ən şərəfli səhifəsini, düşmən üzərində qələbəni yazdıq. Bu gün Fransanın qarnına sancı dolub, min oyundan çıxır. İlham Əliyevin diplomatik fəaliyyəti ilə tək erməni üzərində deyil, müxtəlif güclər üzərində qələbə çaldıq. Biz dünya erməniçiliyinə qalib gəldik. İlham Əliyev ata-babalarımızın, eləcə də bizim uzun illər yaşadığımız acıları övladlarımıza ötürmədi. Bunu obrazlı desək, dəfn etməkdə olduğumuz böyük Ermənistan ideologiyasının tabutuna sonuncu mismarı vurduq".

# Azərbaycanda bəzi banklar təhlükə qarşısında...

## Mərkəzi Bank onların bağlanması barədə qərar verə bilər?

***Son günlər bəzi bankların bağlanacağı ilə bağlı iddialar ortaya atılıb.***

Məsələn, "hit.az"ın yazdığına görə, "Premium Bank"ın ardınca "Yelo Bank"ın da bağlanacağı ilə bağlı fikirlər səsləndirilir.Bu mövzuda açıqlama verən bank məsələləri üzrə ekspert Əkrəm Həsənov bildirib ki, bəzi banklar bağlanma təhlükəsi yaşayır: "Onların vəziyyəti ağırdır, problemli kreditləri var, pullarını qaytara bilmirlər, pul çatmır, bank qarantiyaları veriblər və o qarantiyalar üzrə ödəniş etməlidirlər".

Ekspert belə bankların adını çəkərək ajiotaj yaratmaq istəmədiyini söyləyib. Sitat: "Təhlükənin olması o demək deyil ki 100 faiz bağlanacaq. Ola bilər ki, son anda həmin bankların ya səhmdarları əlavə pul qoysun və bu problemi həll etsinlər. Vətəndaşlar üçün burada qorxulu bir şey yoxdur. Çünki vətəndaşların əmanətləri bir qayda olaraq sığortalıdır. Lakin sahibkarlar və şirkətlər üçün təhlükə var. Təcrübədən bilirik ki, bağlanan banklarda sahibkarın pulu nəinki batır, onların ləğvini həyata keçirən Əmanətlərin Sığortalanması Fondu bu prosesi qeyri-şəffaf və qanunsuz aparır, olan qalan pulun başına daş salır. Ona görə də sahibkarlar gərək bank seçərkən çox ehtiyatlı olsunlar".




"Unikal" xatırladır ki, bir neçə ay öncə keçirdiyi mətbuat konfransında Mərkəzi Bankın sədri Taleh Kazımov bəzi bankların maliyyə göstəricilərində çağırışlar olduğunu demişdi. "Biz onlar ilə çox sıx çalışırıq. Sevindirici məsələ ondan ibarətdir ki, çağırışlar olan banklar sistem əhəmiyyətli deyil. Qeyd etdiyim kimi, onlar ilə çalışırıq və ümidvaram ki, bundan sonra bizim maliyyə sektorumuz dayanıqlılıq nöqteyi-nəzərdən güclənəcək", - Kazımov əlavə etmişdi.

Mərkəzi Bank rəhbəri onu da demişdi ki, tənzimləyici qurumun rəhbəri olaraq maliyyə sektorunun durumunu çox qənaətbəxş qəbul edir. Sitat: "Sektor üçün əsas risklər kredit riski və əməliyyat riskidir. Kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Bankların əksəriyyəti pərakəndə bankçılıqda fəaliyyət göstərir. Qeyri-işlək kreditlərin portfeldə xüsusi çəkisi cəmi 3,7%-dir. İqtisadiyyatımızın durumu nöqteyi-nəzərdən maliyyə sektorumuz çox güclüdür. Siz soruşsanız ki, "maliyyə sektorunun durumundan razısınız?", sozsüz ki, "yox". Qarşıya qoyduğumuz islahatlardan irəli gəlir ki, bizim maliyyə sektorumuz iqtisadi inkişafda rolu artsın, onlar həm risklərin idarə edilməsi sahəsində, həm korporativ idarəetmə sahəsində qabaqcıl təcrübələri tətbiq etməyə başlasınlar, bununla öz maliyyə dayanıqlıqlarını gücləndirsinlər. Əsasən də, istəyimiz odur ki, əhalinin əmanətləri, onların hüquqları müdafiə olunsun və iqtisadi inkişafa dəstək olsunlar".

Göründüyü kimi, Mərkəzi Bankın sədri maliyyə sektorunun durumunu çox qənaətbəxş qiymətləndirsə də, bəzi banklarla bağlı problemin olduğuna işarə eləmişdi. Lakin söhbətin konkret hansı banklardan getdiyini açıqlamamışdı.

Bununla belə, Mərkəzi Bank rəhbərinin "Sevindirici məsələ ondan ibarətdir ki, çağırışlar olan banklar sistem əhəmiyyətli deyil" deməsindən belə anlaşılır ki, haqqında danışılan banklar sektorun aparıcı bankları deyil.

Yeri gəlmişkən, bu il avqust ayının 1-nə Azərbaycanda problemli kreditlərin həcmi əvvəlki aya nisbətən 1.5% azalaraq 494.7 milyon manata enib. Azərbaycan Mərkəzi Bankının məlumatına görə, vaxtı ötmüş kreditlər bu ilin əvvəlinə nisbətən 16.7%, ötən ilin eyni dövrü ilə müqayisədə isə 25% azalıb. Cəmi kredit portfelində (BOKT-lər və kredit ittifaqları daxil olmaqla) vaxtı keçmiş kreditlərin payı əvvəlki ilin müvafiq dövrünə nəzərən 1.3 faiz bəndi azalaraq 2.2% təşkil edib. Bu sevindirici haldır, çünki problemli kreditlər bank sektorumuzun əsas başağrılarından biridir.

Lakin o da unudulmamalıdır ki, 2022-ci ildə Azərbaycanda bir sıra bankların mənfəəti ciddi şəkildə azalmışdı. Bəziləri isə ili zərərlə başa vurub. Bu barədə məlumat bankların öz hesabatlarında yer almışdı. Ekspertlər bunu gəlirlərin azalması, bəzi xərclərin artması, müəyyən tənzimləmələrin, xüsusən istehlak kreditləri sahəsində sərtləşməsi, eyni zamanda bankların qabaqlayıcı siyasətləri - gələcəkdə qarşılarına çıxa biləcək problemlərə qabaqcadan ehtiyat yaradaraq hazırlıqlı olma cəhdləri və s. ilə əlaqələndirmişdilər. Müəyyən qədər də rəqabətin bəzi bankların sıxışdırılması ilə nəticələndiyi vurğulanmışdı - bəzi banklar ya yaxşı idarə olunaraq, ya yaxşı müştəri menecmenti quraraq və yaxud da inzibati resurslardan daha ciddi istifadə edərək paylarını artıra bilib. Beləliklə, bir bank irəli gedərkən digəri geridə qalıb. Lakin ekspertlər ili zərərlə başa vuran bankların bağlanma ehtimalını zəif qiymətləndirirlər. Çünki hələlik görünən odur ki, bankların nizamnamə kapitalı tələblərə cavab verir, yəni minimum həddən - 50 milyon manatdan yuxarıdır. Digər tərəfdən, AMB sədrinin bəzi banklarda problemlərin olduğuna işarə etdiyi qarşıdakı dövrdə hansısa bankın bağlana biləcəyi yönündə xəbərdarlıq kimi qiymətləndirilmirdi. T.Kazımovun dediklərindən anlaşılır ki, requlyator-tənzimləyici orqan olaraq Mərkəzi Bank həmin problemin aradan qaldırılması istiqamətində sözügedən banklarla işləyir. Bu da mütəmadi olaraq gündəmə gələn "bağlana biləcək banklar" mövzusunun hələ ki, aktual olmadığını göstərirdi.

Ancaq aradan aylar keçib və fəaliyyətində problemlər müşahidə edilən bankların Mərkəzi Bank tərəfindən başladılan "müalicəyə" necə reaksiya verdiyini dəqiq demək çətindir. Yəqin ki, ilin sonunadək daha konkret danışmaq mümkün olacaq...

***Toğrul Əliyev***

# Ermənistan rəhbərliyi sülh danışıqlarından yayınır

***Məlum olduğu kimi, Qırğızıstanda Müstəqil Dövlətlər Birliyinin (MDB) dövlət başçılarının sammiti keçirilib. Ermənistan Baş naziri Nikol Paşinyan sammitə qatılmaqdan imtina edib. Bunu işlərinin çox olduğu ilə izah edib. Sammitdən əvvəl, MDB xarici işlər nazirlərinin şurasının iclasına yalnız nazir müavini səviyyəsində qatılıb.***

Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasında Ermənistan tərəfi ilə görüşlərdən danışıb. Dövlət başçısı deyib ki, Ermənistanın baş naziri 6 saat Qranadaya uçur, orada Azərbaycansız Azərbaycanın müzakirə olunduğu anlaşılmaz görüşdə iştirak edir, Bişkekə isə 2-3 saatlıq uça bilmir.



”Oktyabrın 12-də Rusiya tərəfinin təklifi ilə Rusiya, Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Bişkekdə görüşü baş tutmalıdır. Biz Rusiya Federasiyasının vasitəçiliyini minnətdarlıqla qəbul edirik, çünki Rusiya bizim qonşumuz və müttəfiqimizdir, həmçinin, Ermənistanın müttəfiqidir. Bu ölkə minlərlə kilometr məsafədə yerləşən ölkələrdən fərqli olaraq, bizim regionda yerləşir. Təbii ki, ölkələrimiz arasındakı münasibətlərin tarixi, təbii olaraq, Rusiya tərəfinin vasitəçiliyini şərtləndirir. Biz bu təklifi müsbət qarşıladıq və xarici işlər nazirimiz rus və erməni həmkarları ilə görüşməyə hazır idi. Təəssüf ki, Ermənistan tərəfi bu görüşdən imtina etdi. İndi isə sual yaranır: Ermənistan sülh istəyirmi? Düşünürəm ki, xeyr. Əgər o, sülh istəsə idi, bu imkandan imtina etməzdi”, - deyə Azərbaycan prezidenti qeyd edib. İlham Əliyev bildirib ki, Ermənistan hökuməti sözdə və kağız üzərində Azərbaycanın ərazi bütövlüyünü tanısa da, əməldə hər şeyi tam əksinə edir.

Bu barədə fikirlərini “Unikal”la bölüşən Milli Cəbhə Partiyası (MCP) sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə deyib ki, Ermənistanın baş naziri KTMT ilə əlaqələri aşağı endirdiyi kimi, MDB sammitinə qatılmamaqla bu təşkilatdan uzaqlaşmaq kursu götürdü. Onun fikrincə, bununla da Baş nazir Nikol Paşinyanın həm KTMT, həm də MDB ilə əlaqələri aşağı səviyyəyə endirməklə Qərblə inteqrasiya kursunu həyata keçirdiyini nümayiş etdirir: “Ermənistan tərəfindən bu siyasət Rusiyaya qarşı demarşdı. Əgər N.Paşinyan hakimiyyətdə qalacaqsa, Ermənistanı gələn il KTMT-dən və Avrasiya İttifaqı təşkilatından çıxara bilər. Həmçinin MDB üzvlüyünə xitam verməsi mümkündür. Ermənistan rəhbərinin MDB sammitindən imtinası sıradan hadisə deyil. Beynəlxalq Cinayət Məhkəməsinin Roma statusunun ratifikasiyası fonunda N.Paşinyan V. Putinə qarşı psixoloji-siyasi savaş apardığını da nümayiş etdirir. Bununla Qərbə Rusiyanın orbitindən çıxmaq üçün hərəkətə keçdiyinin mesajını verir. Təbii ki, Ermənistan Baş naziri MDB sammiti çərçivəsində prezident İlham Əliyevlə görüşəcəkdi. Amma, belə bir görüş heç də sülh müqaviləsinin bağlanmasına gətirib çıxarmayacaqdı. Ermənistan-Rusiya əlaqələrində siyasi böhran dərinləşir və Yerevan özü bu dərinlikdə batıb qalacaq. Bu illər ərzində Ermənistan məhz Rusiyanın vasitəçiliyi ilə Azərbaycana qarşı işğal və terror siyasəti aparıb. Hazırda isə, Azərbaycan iki dövlət arasında kəskinləşən münasibətlərdən maksimum istifadə edərək, Ermənistan üzərində ciddi üstünlük qazanmalıdır”.

Politoloq Abutalıb Səmədov isə bakıvaxtı.az-a Ermənistan rəhbərliyinin sülh prosesindən yayınmasından danışıb. O bildirib ki, sülh danışıqlarının harada, kimin vasitəçiliyi ilə aparılması barədə qərarı Ermənistan rəhbərliyi vermir. Ekspertin sözlərinə görə, bu barədə tapşırıq ona xaricdən ötürülür və orada mövqe birmənalıdır: ”Sülh sazişi barədə danışıqlar Brüsseldə, yaxud Vaşinqtonda keçirilə bilər. Bu səbəbdən Nikol Paşinyan Azərbaycan Prezidentinin Tiflisdə görüşmək təklifinə hələ heç bir reaksiya verməyib. Eyni zamanda, Bişkek görüşündə iştirakdan imtina etməyin kökündə də bu dayanır. Paşinyana hər iki şəhərlə bağlı icazə verilməyib. Bunu nəzərə alaraq Azərbaycan Prezidenti açıq şəkildə dedi ki, Ermənistan sülh istəmir. Əgər istəsə, Tiflisdə və Bişkekdə görüşüb danışıqlar aparmaq imkanını əldən verməməlidir. Üstəlik, bunun üçün ciddi əsas da göstərmir. Ona görə cənab Prezident dedi ki, bunun bir izahı olmalıdır. Necə ki, Azərbaycan Qranada görüşündə iştirak etmədi və bunu kifayət qədər aydın əsaslandırdı. Ermənistanla sülh sazişi barədə danışıqlar açıq ermənipərəst mövqe tutan Fransanın iştirakı ilə aparıla bilməz. Azərbaycan Prezidenti Brüsseldə keçiriləcək görüşə razılıq verdi. Yəni bizim mövqeyimiz aydındır”.

Politoloqa görə, yalnız o dövlətlər vasitəçi ola bilərlər ki, onlar ədalətli olsunlar, bitərəf olsunlar və beynəlxalq hüquqa hörmətlə yanaşsınlar: “Bu, bizim mövqeyimizdir. Paşinyan nədən Tiflisdə danışıqlar aparmaq istəmir? Gürcüstanın, yaxud Qırğızıstanın günahı nədir? Cavab yoxdur. Çünki səbəbini deyə bilməz. Deyə bilməz ki, ona icazə verilmir. Məsələnin mahiyyəti budur”.

Həmsöhbətimiz vurğulayıb ki, ABŞ başda olmaqla Qərb dövlətləri də ötən ilin aprelindən uğurla başlanan sülh danışıqlarını öz ədalətsiz davranışları ilə dalana çıxardılar: ”Bu vəziyyətdən çıxmağın yeganə yolu təbii ki, Gürcüstan variantından faydalanmaqdır. Ancaq Qərb bu yola nə özü gedir, nə də Ermənistanın getməsinə icazə verir. Anlamaq istəmir ki, bu gün Qərblə Rusiyanın münasibətləri elədir ki, onun hansı birinin vasitəçiliyi ilə sülh sazişinin imzalanması digər tərəfi ciddi təxribatlar törətmək məcburiyyətində qoyacaq. Rusiya Qərbin vasitəçiliyini qəbul etməyəcək və imzalanmış sülh sazişinə mane olmaq üçün əlindən gələni edəcək. Qərb Rusiyada imzalanan sülh sazişini qəbul etməyəcək və o da əlindən gələni edəcək ki, müəyyən problemlər yaratsın”.

Onun fikrincə, bu vəziyyətdə, təbii ki, ən uğurlu variant digər şəhərlərdə danışıqların keçirilməsidir və Bişkek görüşü çox mühüm ola bilərdi. Brüsseldə də növbəti görüş gözlənilir. Bu arada Tiflisdə də xarici işlər nazirləri görüşə bilərdilər: “Bunları Azərbaycan istəyir və təklif edir. Ancaq Ermənistanın heç bir reaksiyası yoxdur. Bundan əvvəl də Rəcəb Tayyib Ərdoğanın irəli sürdüyü dördlü formatı qəbul etdiyi barədə heç bir bəyanat vermədi. ”Variantlar çoxdur” deyib birmənalı cavabdan yayındı”.

A.Səmədov hesab edir ki, bütün bunlar Ermənistanın həqiqətən də sülhü istəmədiyini göstərir: “Yaxud qərar vermək üçün Ermənistan hakimiyyətinin iradəsi yoxdur və müəyyən qüvvələrdən tam asılı vəziyyətdədir. Çox təəssüf ki, bu amil sülh prosesini ciddi şəkildə ləngidir”.

***M.İbrahimli***



## “Sülhməramlılar şələ-şüləlarini yığıb Qarabağdan getməlidirlər” - Politoloq

***Məlum olduğu kimi, Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror tədbirlərindən və Qarabağın erməni sakinlərinin nümayəndələri ilə keçirilən görüşlərdən sonra separatçı rejim özünü buraxdığını elan etdi.***

Əldə olunan razılığa əsasən, separatçıların hər biri öz silah-sursatlarını Azərbaycan tərəfinə təhvil verirlər. Ermənilərin böyük hissəsi də artıq həmin əraziləri tərk edib. Həmçinin, Azərbaycan həmin şəxslərə Qarabağa geri dönmək və Azərbaycan vətəndaşlığı altında yaşamaq şansı da verib.

Separatçıların Qarabağı tərk etməsindən sonra Rusiya sülhməramlılarının da bir neçə postları ləğv olunub. Belə olan halda, sülhməramlıların Qarabağdakı fəaliyyəti müzakirə olunmağa başlayıb.

Bəs görəsən, münaqişənin olmadığı bir bölgədə sülhməramlıların qalmasına ehtiyac varmı?

Məsələ ilə bağlı “Unikal”a açıqlama verən politoloq Qabil Hüseynli Rusiya sülhməramlılarının Qarabağda qalması ilə razı olmadığını bildirib:

“Sual olunmalıdır ki, rus sülhməramlıları burada nə iş görəcəklər? Artıq onların Qarabağda görəcəkləri heç bir iş yoxdur. Millətlərarası münaqişə yoxdur, silahlı qüvvələrin böyük əksəriyyəti isə ərazidən çıxarılıb. Sülhməramlılar belə bir gülməli arqument irəli sürürlər ki, guya ermənilərdən götürülmüş silahlara nəzarət edəcəklər. Vurğulamaq istərdim ki, həmin silahlar Azərbaycanındır və onlara Azərbaycan Ordusu nəzarət edəcək. Sülhməramlılar hər hansı bir bəhanə ilə bu bölgədə qalaraq Cənubi Qafqazdakı strateji maraqlarını təmin etməyə çalışırlar. Bu isə mümkün deyil. Ola bilsin ki, onlar Azərbaycan siyasi rəhbərliyi ilə hər hansı razılığa gələ biləcəklərinə ümid bəsləyirlər, amma mən bunun olacağına inanmıram. Sülhməramlıların missiyası başa çatıb. Onlar mütləq şəkildə öz şələ-şülələrini yığışdırıb getməlidirlər”, - deyə Q. Hüseynli qeyd edib.

Politoloq sülhməramlıların ərazilərimizdən çıxarılması üçün Rusiya siyasi rəhbərliyi ilə danışılmalı olduğunu bildirib: “Rusiya Prezidentinin mətbuat katibi qeyd edir ki, bu mövzuda Azərbaycan siyasi rəhbərliyi ilə danışıqlar gedir. Danışıqların necə aparıldığı və konkret hansı məsələlərin müzakirə olunduğu barədə məlumat yoxdur. Zənnimcə, Azərbaycan siyasi rəhbərliyi ola bilsin ki, bu ilin sonuna qədər sülhməramlıların Qarabağda qalmasına icazə versin. Növbəti ildən etibarən isə onlar mütləq şəkildə Azərbaycanın suveren ərazilərini tərk etməlidirlər”.

***Murad İbrahimli***

# Bişkekdə İlham Əliyevin Putinlə görüşü oldu



***Oktyabrın 12-də Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub.***

”Unikal” xəbər verir ki, Prezident Vladimir Putin çıxış edərək dedi: Hörmətli İlham Heydər oğlu, Sizi görməyimə çox şadam. Biz sonuncu dəfə Sizinlə telefonla danışmışdıq. Əlbəttə, açıq demək lazımdır ki, burada bir nömrəli məsələ Qarabağ ətrafındakı vəziyyətdir. Bizim başqa gündəliyimiz də var, o, kifayət qədər genişdir. Təklif edirəm ki, işimizi aşağıdakı kimi quraq: onda biz ikinci hissədən başlaya bilərik, həmkarlarımıza öz fikirlərini söyləməyə, danışmağa imkan verək. Sonra bir daha üz-üzə qalaq və söhbət edək, məsələlərin bütün kompleksi, o cümlədən belə desək, həssas məsələlər üzrə danışaq.

Prezident İlham Əliyev: Vladimir Vladimiroviç, sağ olun. Sizi yenidən görməyimə şadam. Sizin də qeyd etdiyiniz kimi, biz bu yaxınlarda söhbət etmişik. Sevindirici haldır ki, Siz Qırğızıstana dövlət səfəriniz çərçivəsində görüşmək üçün vaxt tapdınız. Əslində, məsələlər çoxdur. Hesab edirəm ki, Sizin təklifiniz tamamilə məntiqlidir. Biz həmkarlarımızla ikitərəfli gündəliklə bağlı danışacağıq, həm də bizim danışmağa mövzularımız çoxdur. Bu ilin həm əmtəə dövriyyəsi, həm sənaye kooperasiyası, həm də nəqliyyat sahəsində əməkdaşlıq üzrə nəticələri olduqca yaxşıdır. Çoxlu layihələr var. Sonra isə regional mövzulara və təhlükəsizlik məsələlərinə keçərik. Görüşə görə bir daha təşəkkür edirəm.

Prezident Vladimir Putin: Sağ olun.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafından, xüsusilə ticarət dövriyyəsinin artmasından məmnunluq ifadə olundu.

Regionlararası əməkdaşlıq məsələsinə toxunularaq, Azərbaycanın Rusiyanın 70 regionu ilə uğurlu əməkdaşlığı qeyd edildi, bu xüsusda mütəmadi əsasda keçirilən regionlararası forumun vacib platforma olduğu bildirildi.

Söhbət zamanı Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafından, onun potensialının genişləndirilməsindən və bütövlükdə həm dəmir yolu, həm də avtomobil yolları vasitəsilə yükdaşımaların həcminin bu marşrut boyunca artmasından məmnunluq ifadə olundu.

Humanitar sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulandı, bu baxımdan Azərbaycanda rus dilinə qayğı, xeyli sayda ali və orta təhsil müəssisəsində rus dilinin tədrisi qeyd edildi.

Söhbət zamanı kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsinin önəminə də toxunuldu.

Görüşdə Azərbaycan ilə Rusiya arasında hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinin vacibliyi qeyd olundu.

# “Prezidentin adından yayılmış videomüraciət saxtadır” - Rəsmi açıqlama

***“Bir sıra sosial şəbəkə seqmentlərində saxta hesablardan edilən paylaşımlar vasitəsi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından guya Azərbaycan xalqına ünvanlanmış videomüraciət yayılıb. Bildiririk ki, qeyd olunan videomüraciət “deepfake” texnologiyaları ilə hazırlanıb və heç bir reallığı əks etdirməyən saxta məlumatdır”.***

”Unikal” xəbər verir ki, bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin və Medianın İnkişafı Agentliyinin birgə yaydığı açıqlamada bildirilib.

“Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa çağıraraq xatırla-




dırıq ki, Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı və sosial media hesabları mötəbər informasiya mənbəyi olaraq daim aktivdir və dövlət başçısının fəaliyyətini operativ formada işıqlandırmaqdadır.

Azərbaycan vətəndaşlarını, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə sayıq olmağa səsləyirik.

“Deepfake” texnologiyalarından istifadə edilməsi yolu ilə müxtəlif şəxslərin adından saxta videoların hazırlanması və yayılması halı 44 günlük Vətən Müharibəsi dövründə də müəyyən edilərək qarşısı alınıb və hazırda da bütün dünyada yeni təhdid növü kimi qiymətləndirilən “deepfake”lərə qarşı müvafiq qurumlar tərəfindən mübarizə və geniş maarifləndirmə işləri aparılmaqdadır.

Qeyd olunan saxta və yalan videomüraciət və onun mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin edilməkdədir” - birgə məlumatda vurğulanıb.

# PA 30 dövlət qurumunun mətbuat katibinin Türkiyəyə səfərini təşkil edib

***Azərbaycanda dövlət kommunikasiyasının təkmilləşdirilməsi və bu sahədə təcrübə mübadiləsi məqsədilə Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin dəvəti ilə Azərbaycan Prezident Administrasiyası tərəfindən 30 dövlət qurumunun ictimaiyyətlə əlaqələr sahəsinə məsul əməkdaşlarından ibarət nümayəndə heyətinin Türkiyəyə səfəri təşkil edilib.***

”Unikal” xəbər verir ki, səfərin ilk günü oktyabrın 11-də Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsində görüş keçirilib.

Görüşlər zamanı Azərbaycan və Türkiyə arasında informasiya və dövlət kommunikasiyası sahəsində birgə əməkdaşlıq məsələləri müzakirə edilib.

Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin məsul nümayəndələri tərəfindən ictimai diplomatiya, media yayımı, xarici media ilə əlaqələr, dezinformasiya ilə mübarizə, Türkiyə brendi, kommunikasiya sahəsində insan resurslarının idarə edilməsi mövzularında təqdimatlar edilib.

Nümayəndə heyətinin




Türkiyəyə səfəri davam edir. Səfər çərçivəsində Türkiyənin Xarici İşlər Nazirliyi, Milli Müdafiə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Anadolu Agentliyi, Türk Dövlətləri Təşkilatı, TRT World, Radio və Televiziya Ali Şurası (RTÜK) və digər qurumlarda görüşlər keçiriləcək.

## ELAN

**”Vüsal Nurbalaoğlu Kəndli Fermer Təsərrüfatı” MMC adını dəyişdirərək ”NUR-M.B.X. Kəndli Fermer Təsərrüfatı” MMC-yə çevrildiyini elan edir.**

# BMT Qarabağda ələ keçirilən hərbi vasitələrin sənədləşdirilməsinə dəvət edildi

***“Antiterror tədbirləri nəticəsində zərərsizləşdirilən və ya ələ keçirilən silahların mürəkkəbliyi və təşkilatlandırılması Ermənistanın Qarabağdakı hərbi personalını yerli milislər və ya silahlı mülki şəxslər kimi təsvir etmək cəhdlərini ifşa edib”.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov Beynəlxalq Ədalət Məhkəməsində Ermənistanın Azərbaycana qarşı müraciəti üzrə dinləmələrdə çıxış edərkən bildirib.

“Ermənistan qüvvələrinin Qarabağda törətdiyi təhlükəsizlik təhdidlərinin ən bariz göstəricisi əməliyyat zamanı məhv edilmiş və ya ələ keçirilmiş, həmçinin Qarabağ boyunca tapılmış silahların həcmi və qabaqcıl texnologiyalı hərbi vasi-



tələrdir”, - Elnur Məmmədov vurğulayıb.

Nazir müavini qeyd edib ki, Azərbaycan BMT-ni bu hərbi vasitələrin sənədləşdirilməsinə, tərk-silah prosesinə yardım etməyə və Ermənistanın qanunsuz fəaliyyətlərini bütün dünyaya üçün sənədləşdirməyə dəvət edib.



# Arutyunyan Xankəndidə konyak zavodunda gizlənirmiş

***Qarabağda özünü buraxmış separatçı rejimin lideri Araik Arutyunyanın saxlanmasının bəzi detalları məlum olub.***

”Unikal” xəbər verir ki, separatçıların rəhbəri Xankəndidəki konyak zavodunda gizlənirmiş. Qeyd olunub ki, Arutyunyan gizləndiyi zavodun səhmdarlarından biri olub. Daha sonra Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin xüsusi dəstəsi konyak zavoduna daxil olaraq Arutyunyanı Bakıya gətirib.



# Sülhməramlıların daha bir müşahidə məntəqəsi bağlandı

***Rusiya sülhməramlılarının Şuşadakı daha bir müşahidə məntəqəsi bağlanıb.***

”Unikal” xəbər verir ki, bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5[N]
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Milli Məclis İlham Əliyevlə bağlı bəyanat qəbul etdi

***Milli Məclis İlham Əliyevin Prezident seçilməsinin 20-ci ildönümü ilə əlaqədar bəyanat qəbul edib.***

"Unikal" xəbər verir ki, bəyanatda deyilir: "Ümummilli Liderimiz Heydər Əliyevin təməlini qoyduğu inkişaf strategiyasını yeni çağırışlar şəraitində layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev heyrətamiz şəxsi keyfiyyətləri, xalq və dövlət qarşısında müstəsna xidmətləri ilə yeni tarixi dövrün milli lideri səviyyəsinə yüksəlmişdir. Onun rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır.



İlham Əliyevin siyasət sənətinin incəliklərinə dərindən bələdliyi, fenomenal liderlik qabiliyyəti və yaradıcı dövlətçilik təfəkkürü, yenilməz əzmi və iradəsi ölkəmizin müasir simasını müəyyənləşdirməklə yanaşı, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini kökündən dəyişmişdir. Milli və dövlətçilik maraqlarımızın qorunması və irəli aparılması, ölkəmizin potensialının artırılması üçün görülən ardıcıl tədbirlər Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə və regional güc mərkəzinə çevirmişdir.

Ölkə iqtisadiyyatında sürətli və davamlı inkişaf dövrü yaşanmışdır. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəhəng transmilli layihələr qlobal iqtisadiyyatda mühüm rol oynayır. Energetika sektorunda əldə edilən nailiyyətlər nəinki ölkəmizin enerji müstəqilliyini təmin etmiş, həm də Avrasiyanın energetika xəritəsini dəyişdirmişdir. Hazırda Azərbaycanın bərpaolunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində iş aparılır.

Çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi Azərbaycanın iqtisadi mənzərəsini daha da zənginləşdirmişdir. Ölkəmiz Avropa ilə Asiyanı bir-birinə sıx bağlayan nəqliyyat-logistika mərkəzinə çevrilmişdir. Qeyri-neft sektorunun, xüsusən kənd təsərrüfatının, informasiya texnologiyalarının və turizmin inkişafı dayanıqlı iqtisadi tərəqqi amillərindən biri olmuşdur.

2013-cü ildə ilk peykinin buraxılmasından sonra Azərbaycan kosmik klubun üzvü olmuşdur və bu gün kosmik fəzanın istifadəsi sahəsində fəaliyyətini 3 peyklə davam etdirir. Ölkəmizin kosmik strategiyası uzunmüddətli perspektivə yönəlmişdir və dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Həyata keçirilən əsaslı islahatlar dövlət idarəçiliyi sistemini müasir tələblər səviyyəsində qurmağa imkan vermişdir. Ölkənin siyasi həyatı müasir çağırışlara uyğunlaşdırılmış, çoxpartiyalı sistem təkmilləşdirilmişdir.

İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası cəmiyyətin siyasi həyatında önəmli rol oynayır. Digər siyasi qüvvələrin, o cümlədən müxalif partiyaların sərbəst fəaliyyəti üçün hüquqi əsaslar təkmilləşdirilmişdir. Milli-mənəvi dəyərlərin qorunması, elm və təhsilin, mədəniyyət və incəsənətin inkişafı sahəsində əməli addımlar atılmışdır.

Azərbaycanda qanunun aliliyi təmin edilmiş, insan hüquqlarının və azadlıqlarının qorunması dövlətin ali məqsədinə çevrilmiş, vətəndaş cəmiyyətinin inkişafına əlverişli şərait yaradılmışdır. Həyata keçirilən düşünülmüş tədbirlər sayəsində ölkəmiz dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Azərbaycanın dünyaya təqdim etdiyi demokratik cəmiyyət nümunəsi etnik mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verilməsinə, bütün xalqların mədəni sərvətlərinin, müxtəlif dinlərə etiqad edən insanların mənəvi dəyərlərinin qorunmasına və inkişafına əsaslanır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasının həyata keçirilməsi sahəsində parlaq nailiyyətlər əldə edilmişdir. Bir çox dünya dövlətləri ilə səmərəli əməkdaşlıq əlaqələri qurulmuş, beynəlxalq təşkilatlar çərçivəsində fəal iş aparılmışdır. 2012-2013-cü illərdə dövlətimizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük uğurlardan biri olmuşdur.

Azərbaycanın beynəlxalq nüfuzunu göstərən digər mühüm bir hadisə dünyanın BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatının yekdil qərarı ilə 2019-2022-ci illərdə dövlətimizin bu quruma sədr seçilməsi və yenidən yekdil qərarla sədrlik müddətinin daha bir il uzadılması olmuşdur. Hərəkata sədrlik dövründə Prezident İlham Əliyev ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorumuşdur. 2021-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Gənclər Təşkilatının yaradılması Azərbaycanın uğurlu sədrliyinin nəticələri olmuşdur.

Prezident İlham Əliyevin irəli sürdüyü milli təhlükəsizlik konsepsiyasının bütün istiqamətlərində müsbət nəticələr əldə edilmişdir. Ən yüksək standartlara cavab verən silahlı qüvvələr formalaşdırılmışdır. Doğma torpaqlarını işğaldan azad etməyə hazır olan vətənpərvər gənc nəsil yetişdirilmişdir. Bütün bunlar Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsi barədə Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin yerinə yetirilməsinə şərait yaratmışdır.

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik məharəti ilə idarə etdiyi Azərbaycan Silahlı Qüvvələrinin hərbi qələbəsi xalqımızın qəhrəmanlıq salnaməsində yeni şanlı səhifə açdı. Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr Zəfəri sayəsində işğalçı Ermənistan təslim olmağa məcbur edildi, tarixi ədalət və dövlətimizin ərazi bütövlüyü bərpa olundu. Azərbaycanın əzəli tarixi torpaqları olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi son iki yüz ilə yaxın dövrdə xalqımızın məruz qaldığı torpaq itkiləri və etnik təmizləmələr silsiləsinə son qoydu, xalqımıza düşmən kəsilmiş dünya ermənilərinə sarsıdıcı zərbə endirdi.

Ermənistanın davam edən hərbi-siyasi təxribatlarına son qoyulması məqsədi ilə 2023-cü il sentyabrın 19-20-də müzəffər Ali Baş Komandanın məharətli rəhbərliyi ilə Qarabağda həyata keçirilən lokal antiterror tədbirləri xalqımızın milli ruhunun yenilməzliyini bir daha nümayiş etdirdi. Azərbaycan Ordusunun qəhrəmanlığı və fədakarlığı sayəsində erməni silahlı dəstələri tərk-silah edildi, kriminal xunta rejiminin fəaliyyətinə son qoyuldu, dövlətimizin suverenliyi onun bütün ərazisində bərpa edildi.

Qarabağı könüllü tərk etmək istəyən erməni sakinlərin ölkə ərazisindən təhlükəsiz və rahat çıxışına şərait yaradılmışdır. Qarabağda qalan ermənilərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün lazımi tədbirlər görülür. Ermənistanla sivil dövlətlərarası münasibətlər qurulması məqsədi ilə Azərbaycanın irəli sürdüyü şərtlər əsasında sülh danışıqları davam etdirilir.

Hazırda işğaldan azad edilmiş torpaqlarda Prezident İlham Əliyevin irəli sürdüyü strateji yol xəritəsinə əsasən bərpa və quruculuq işləri geniş vüsət almışdır. Məcburi köçkünlər mərhələ-mərhələ doğma yurdlarına qayıdırlar. İnamla söyləmək olar ki, Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi ilə bağlı bütün layihələr uğurla başa çatdırılacaq və bu bölgələr Azərbaycanın dilbər guşələrinə çevriləcəkdir.

Siyasi lider öz fəaliyyəti ilə zamanca qısa bir dövrü əhatə edir, milli lider isə uzunmüddətli perspektiv üçün ölkəsinin inkişafının optimal istiqamətlərini müəyyənləşdirir. Azərbaycan Respublikasının Milli Məclisi əmindir ki, Prezident İlham Əliyevə xas olan siyasi bəsirət və səriştə Azərbaycanın müstəqillik yollarında bundan sonra da inamla irəliləməsini təmin edəcəkdir. Milli Məclis Vətənimizin və xalqımızın bu günü və sabahı naminə dəyərli fəaliyyətində dövlət başçısına yeni böyük uğurlar arzulayaraq, onun uzaqgörən daxili və xarici siyasətini, həmişə olduğu kimi, fəal surətdə dəstəkləyəcəyini, həyata keçirilən quruculuq işlərinin qanunvericilik bazasını möhkəmləndirmək və təkmilləşdirmək üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyini bəyan edir".

***A.Kəlbiyev***



## Nazirlik Xankəndidə 30 nəfərlik sığınacaq yaratdı

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ölkəmizin Xankəndi şəhərində həssas əhali qruplarından olan şəxslər üçün 30 nəfərlik sığınacaq yaradılıb.***

Bunun üçün Xankəndinin mərkəzində 30 çarpayılıq yataq otaqları, su, elektrik sistemi, mətbəxi, sanitar qovşağı, istirahət otağı və camaşırxanası olan üçmərtəbəli bina ayrılıb. Binada təmizlik və müvafiq təchizat işləri yekunlaşıb və 10 oktyabr 2023-cü il tarixdən sığınacağa sakinlərin qəbuluna başlanıb. Onlar burada gündə 3 dəfə isti yemək və qəlyanaltı ilə təmin olunurlar. Sığınacağın xarici təhlükəsizliyi polis tərəfindən təmin edilir.

Sığınacaqda çalışmaq üçün 2 psixoloq və 2 sosial işçi cari il sentyabrın 30-dan Xankəndi şəhərinə ezam olunub, orada sakinlərin ilkin ehtiyaclarını və psixo-sosial vəziyyətini qiymətləndiriblər. Qiymətləndirmə aparılan şəxslərin yaşadıqları yerlərə gedilərək, onlara sığınacağın yeri və qida təminatı barədə məlumatlar da verilib.

Artıq 6 nəfər sığınacağa yerləşdirilib, 1 nəfər aidiyyəti üzrə tibbi xidmət göstərilməsi üçün yönləndirilib, ümumilikdə 11 nəfər sığınacağın xidmətlərindən istifadə edib. Həmin psixoloq və sosial işçilər tərəfindən hazırda sığınacaq sakinlərinə sosial xidmətlər göstərilir. Sığınacaqda çalışmaq üçün həmçinin aşbaz, texniki işçilər və b. da ezam olunub. Sığınacağa yerləşdirmə könüllü xarakter daşıyır, gecə qalmaq istəməyənlərə də gündə 3 dəfə qida, zəruri geyim və sosial xidmətlərdən yararlanmaq imkanı yaradılıb.

Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri də gün ərzində bir neçə dəfə sığınacağı ziyarət edir, şəraitlə tanış olur, ərzaq-qida təminatı, göstərilən sosial xidmətlərlə maraqlanırlar.

## Valideynin övladını evinin yanındakı bağçaya aparması məcburi deyil

***Paytaxtda bəzi bağçalarda növbələr çoxdur, lakin bəzi bağçalar boşdur. Burada tələb və təklif rol oynayır.***



"Unikal" xəbər verir ki, bunu Elm və Təhsil Nazirliyinin Məktəbəqədər təhsilin təşkili və idarə olunması sektorunun müdiri İlahə Rəsulova deyib.

Onun sözlərinə görə, məktəbdən fərqli olaraq valideyn övladını evin yanındakı bağçaya aparmağa məcbur deyil. İstədiyi 3 bağçanı seçərək növbəyə yazıla bilər.

"Elm və Təhsil Nazirliyi olaraq bu mövzuda işlər aparırıq. Dünyada bununla bağlı bir çox uğurlu modellər var. Lakin hansı qəsəbədə, hansı rayonda modellərin uğurlu aparılması üçün təhlil aparılmalıdır", - deyə İlahə Rəsulova bildirib.

# “Azərbaycan rus əsgərlərinin ərazimizdən çıxarılmasını tələb etməlidir”

## Sərdar Cəlaloğlu: “Rusların burada qalması revanşist və Rusiyanın təsiri altında olan ermənilərdə yenidən Qarabağ iddiasının səsləndirilməsinə gətirib çıxaracaq”

***Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu ”Unikal”a müsahibə verib. O, Yaxın Şərqdə başlayan toqquşmanın İsrail-İran müharibəsinə səbəb olma ehtimalından, bu müharibənin bizim regiona hansı təsirlərinin olacağından, sülhməramlıların nə zaman Qarabağdan gedəcəyindən və başqa məsələlərdən danışıb.***

***-Sərdar bəy, Yaxın Şərqdə başlayan müharibənin genişlənməsi, region ölkələrini əhatə etməsi gözlənilirmi? Sizcə, İsraillə İran arasında müharibə ola bilərmi?***

-Düşünürəm ki, İsraillə İran arasında ciddi toqquşma olmayacaq. Sadəcə İranın nüvə silahı əldə etməsi İsraili çox narahat edir. Ona görə də hazırkı münaqişədən qabaq dəfələrlə bəyanat vermişdi ki, biz İrana imkan verməyəcəyik. İndiki halda isə demək olar ki, bu münaqişə İsrailin əlində bəhanədir. Bu münaqişənin arxasında İran durmasa belə bundan istifadə edib İranın nüvə silahı əldə etməsinin qarşısını almaq üçün lazım olan addımlar atılacaq. Burada əsas məsələ indiki münaqişəni kimin törətməsi, təşkil etməsi deyil, məsələ qoyulmalı idi ki, nəyə görə BMT-nin 1947-ci ildəki qərarı bu günə qədər icra olunmayıb. İsrail və Fələstin dövlətinin yaradılması ilə bağlı qərar verilib, qərarın bir hissəsi icra olunub. Belə ki, İsrail dövlət kimi tanınıb. Amma Fələstin bu günə qədər dövlət kimi tanınmayıb. 60 ildən artıqdır ki, münaqişənin səbəbi bununla bağlıdır. İsrailin dövlət olaraq tanındığı kimi Fələstin də tanınsa, onda Fələstinin bütün hərəkətləri beynəlxalq hüquqa uyğun dəyərləndirilə bilər. Amma indiki halda Fələstin dövlət deyil, oradakı qruplar da istənilən hərəkəti edirlər. Biri buna terrorist deyir, onlar özlərinə azadlıq mücahidləri deyirlər. Digər tərəfdən, bu münaqişənin siyasi olmasına baxmayaraq, çox böyük həvəslə bunu dini münaqişəyə çevirmək istəyirlər. Halbuki burda məsələ heç də tərəflərin birinin yəhudi, digərinin müsəlman olması deyil. Burada əsas torpaq, dövlət uğrunda mübarizə gedir. Ona görə də bunu dini müstəviyə çevirmək doğru deyil. Buna ən düzgün yanaşma tərəflərin sülh yolu razılığa gəlməsi və BMT qərarlarının icrasıdır. Başqa tərəf tutmaq münaqişənin genişlənməsinə gətirib çıxara bilər ki, bu da indiki həssas məqamda dünyanın taleyini şübhə altına alar.

***-Bu müharibənin bizim regiona nə kimi təsiri ola bilər?***

-Dünya o qədər qloballaşıb ki, əlbəttə təsiri olacaq. Bizim neftimizin 40 faizdən çoxunu İsrail alır. İndi İsrail müharibə vəziyyətindədir. Tutaq ki, bizim neftimizin alınması ilə bağlı hansısa problem olsa, bunun Azərbaycana ciddi iqtisadi təsiri olacaq. Eləcə də Azərbaycanın bu münaqişədə tutduğu mövqeyinə görə, yəni, İsraili müdafiə etdiyi üçün İran hədəqorxu gəlir. Doğrudur, biz əslində Yaxın Şərq hesab olunmuruq, amma Yaxın Şərq ilə qonşu olduğumuza görə orada baş verən bütün hadisələr qonşu dövlətlərə, o cümlədən Türkiyə, Azərbaycan və İrana təsir edir. Bu baxımdan, müasir dünyada hər hansı bölgədə münaqişənin nə qədər uzaqda olmasına baxmayaraq, həmin ölkələrdən uzaqda yerləşənlərə də təsir göstərir. Ukrayna-Rusiya arasındakı müharibə üzündən Afrikada taxıl qıtlığı



yaranıb. Eləcə də bəzi Cənubi Amerika ölkələrində problemlər var. Dünyanın qloballaşması baş verən istənilən hadisənin bütün xalqların və dövlətlərin taleyinə təsir etməsinə gətirib çıxarıb. Bunu unutmaq olmaz.

***-Region məsələsindən danışdıq. Son günlər Rusiya sülhməramlılarının Qarabağdakı bir neçə müşahidə məntəqəsi ləğv olunub. Məlum olduğu kimi, Qarabağda yaşayan ermənilər öz istəkləri ilə ölkəmizin ərazisini tərk ediblər. Rusiyanın Cənubi Qafqazda rolunun bitdiyini hesab etmək olarmı? Sizcə, Rusiya sülhməramlıları Qarabağdan nə vaxt gedəcək?***

-Rusiyanın bəzi siyasətçiləri açıq şəkildə Azərbaycanı hərbi təsir altında saxlamaqla bağlı bəyanatlar veriblər. Rusiya Xarici İşlər Nazirliyinin belə bir bəyanatı var ki, guya onlar Qarabağ ermənilərinin hüquqlarının təminatçısı kimi çıxış etməlidir. Beynəlxalq hüquqa görə, hüquqların təminatının ordulara həvalə edilməsi təcrübəsi yoxdur. Bu baxımdan, Rusiyanın burada hansısa missiya saxlayıb insan hüquqlarını müdafiə etməsi absurddur. Ukraynada milyonlarla insanın yaşamaq hüquqlarını pozan dövlətin gəlib bu bölgədə 10 min nəfərin guya hüquqlarını müdafiə etməsi riyakarlıqdan başqa bir şey deyil. Azərbaycan Rusiya silahlı qüvvələrinin ərazimizdən çıxarılmasını tələb etməlidir. Əslində Rusiya həyasızlıq edir. Ermənistan və Azərbaycanda hərbi qüvvə saxlamaqla Cənubi Qafqazda çirkli oyunlarını oynamaq istəyir. 200 ilə yaxındır ki, Rusiya bölgə xalqlarını bir-birinə düşmən eləmişdi. İndi bu kart əlindən çıxıb və Rusiya azğınlaşıb. Açıq bu şəkildə hərbi yolla istəyir ki, burada qoşun saxlasın. Rusiyanın Azərbaycan ərazisində hər hansı hərbi qüvvə saxlaması Azərbaycanın suverenliyinin məhdudlaşması, beynəlxalq hüququn kobudcasına pozulmasıdır və konstitusiyamıza ziddir. Ona görə də Azərbaycan hökuməti Türkiyə, Pakistan və digər dostlarla bu məsələni müzakirə edib, Rusiyanın lazım gələrsə, hərbi yolla Azərbaycandan çıxarılması ilə bağlı konkret addımlar atmalıdır. Rusların burada qalması revanşist və Rusiyanın təsiri altında olan ermənilərdə yenidən Qarabağ iddiasının səsləndirilməsinə gətirib çıxaracaq. Amma Rusiya buradan çıxacağı təqdirdə, hətta ermənilər burada yaşasa belə, heç bir ərazi iddialarından söhbət gedə bilməz. Onların missiyası Qarabağ münaqişəsini mümkün qədər uzatmaq, ermənilərlə azərbaycanlıları yenidən toqquşdurmaq idi. Buna da nail ola bilmədilər. Paşinyan çox uzaqgörən siyasət apardı. Belə ki, Azərbaycan lokal xarakterli antiterror keçirən zaman müdaxilə etmədi, Qarabağı Azərbaycanın ərazisi kimi tanıdı və bununla da Rusiyanın burada qurduğu oyunların hamısını puç etdi.

***-Ermənistan-Rusiya münasibətlərinin gərginləşdiyini siz də qeyd etdiz. Qarşıdakı dönəmdə bu ölkələr arasında vəziyyət necə dəyişə bilər?***

-Hələlik orada da proseslər geridönməz deyil. Ermənistanda hələ də Rusiyanın maraqlarına xidmət edən qruplar var. Orada müəyyən adamlar var ki, onlar Rusiya tərəfindən ələ alınıb və istənilən vaxt Rusiya onları şantaj edə bilir, təsiri altında saxlayır. O qüvvələr hələ də Ermənistanda güclüdür. Amma Paşinyan da öz mövqeyini kifayət qədər gücləndirə bilib, Avropa ölkələrindən, ABŞ-dan dəstək alıb. Onlar Rusiyanın asanlıqla Paşinyan hökumətini yıxmasına imkan verməyəcək. Ruslar çalışacaqlar ki, daha çox radikal ermənilər hakimiyyətə gəlsin və təzədən Ermənistan-Azərbaycan münaqişəsi alovlansın. Nə qədər ki, Paşinyan hakimiyyətdədir, Rusiya bu bölgədə öz çirkin niyyətlərinə nail ola bilməyəcək.

***-Bildiyiniz kimi, Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında və Naxçıvan ərazisində tikiləcək körpülər vasitəsilə İran ərazisindən keçməklə bağlantı yaradılacaq. Bu işləri necə qiymətləndirirsiz?***

-Zəngəzur dəhlizi Ermənistandan açılmayacağı təqdirdə, bu ölkənin blokadadan çıxması, kommunikasiyaların açılması mümkün olmayacaq. Bu da yenə Ermənistan və Azərbaycan arasında gərginliyin qalmasına səbəb olacaq. Ona görə də İrandan çəkilən yola paralel, Ermənistandan da Zəngəzur dəhlizinin açılması ilə bağlı niyyət qüvvədə qalmalıdır. Düzdür, indiki halda Paşinyan buna etiraz edir. Mənə elə gəlir ki, onun etirazına səbəb daxili auditoriyadır. Onun özü də yaxşı bilir ki, Zəngəzur dəhlizi hər şeydən əvvəl Ermənistanın kommunikasiya blokadasından çıxması deməkdir. Bu yol bizdən daha çox ermənilərə lazımdır. Onlar bizim ərazidən 1000 kilomter istifadə edəcəklər, biz isə onlardan cəmi 40 kilometr istifadə edəcəyik. Digər tərəfdən, Zəngəzur qeyri-qanuni olaraq ruslar tərəfindən Azərbaycandan alınıb ermənilərə verilib. Yəni, əslində bu torpaqlara bizim də iddiamız var. Digər tərəfdən isə Ermənistan Qarabağın işğalı zamanı Azərbaycana vurduğu ziyana görə bizə pul ödəməlidir. Ermənilərin bu pulu ödəmək imkanı yoxdur. Çox güman ki, onlar ərazi ilə konpensasiya etməli olacaqlar. Hələlik bu məsələni bitmiş hesab etmək olmaz. İrandan çəkilən yolu da etibarlı yol hesab etmirəm. Paşinyanla danışıb, onu inandırıb Ermənistan ərazisindən dəhlizin açılmasına razı salmaq lazımdır. Onun müqabilində də Ermənistan Azərbaycan ərazisindən sərbəst gəlib-getmək imtiyazları əldə etsin. Yəni, kommunikasiyalar açılarsa, Ermənistan məcburdur ki, bizim ərazimizdən istifadə etdiyinə görə torpaqbasdı versin, gömrük xərcləri ödəsin. Amma qarşılıqlı olaraq Zəngəzur dəhliz kimi tanınarsa, Azərbaycan da Ermənistana öz ərazisindən azad şəkildə kommunikasiyalardan istifadə etmək hüququ verə bilər. Bu da Ermənistanın iqtisadi inkişafına çox böyük müsbət təsir edər.

***Anar Kəlbiyev***

# Fuad Nağıyevin heyrətamiz proqnozu

## Dövlət Turizm Agentliyi indiki qiymətlərlə və xidmət keyfiyyəti ilə ölkəyə turist axınını necə təmin etmək fikrindədir?

***Bu günlərdə Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Nağıyev Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının (ATAA) bir illik fəaliyyətinə həsr edilmiş hesabat tədbirində çıxışı zamanı Azərbaycana gələn xarici turistlərin sayının 2026-cı ilədək 4 milyona, yerli turistlərin sayının isə 6 milyona çatdırılması planlaşdırıldığını açıqladı. Onun sözlərinə görə, qarşıdakı 4 ildə ümumi daxili məhsulda (ÜDM) turizm sektorunun payını 2019-cu ilə nisbətən 1,5 dəfə artırılması gözlənilir. Sitat: "Ümumilikdə isə hər il ÜDM-də turizm sektorunun payını 20 % artırmağı düşünürük. Həmçinin turistlərin xərcləmələrinin də artaraq 10 milyard manata çatdırılması planlaşdırılır. Bütün bunlara nail olmaq üçün ATAA-nın üzərinə də çox böyük məsuliyyət düşür. Ümid edirəm ki, biz birlikdə bu nəticələrə nail olacağıq".***



Vurğulamaq yerinə düşər ki, Fuad müəllim Azərbaycan turizminin gələcəyi ilə bağlı bu cür optimist açıqlama ilə ilk dəfə çıxış eləmir. Bir neçə ay öncə də yazmışdıq: bu cür optimizm üçün ilk baxışda kifayət qədər əsas var - ölkəmizin təbii-coğrafi şəraiti turizmin inkişafı üçün böyük perspektivlər açır. Üstəlik, son illərdə bu sahənin inkişafına dövlətin dəstəyi də xeyli artıb. Bütün bunlar öz yerində... Lakin gerçək mənzərəni gözdən qaçıraraq turizm sektorunda qarşıya qoyulmuş hədəflərə çatmaq elə də real görünmür.

Başlıca səbəblərdən biri Azərbaycanın turizm sahəsində, habelə tabeliyindəki dövlət qoruqlarının ərazilərində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olan Dövlət Turizm Agentliyinin özüdür. Əksər ekspertlər də, ictimaiyyət də, media da əmindir ki, bu qurum fəaliyyətini müasir çağırışlara uyğun qura bilməyib. Belə olmasaydı, nəinki yerli turistlər, hətta xarici turistlər də Azərbaycanın turizm bölgələrində yüksək qiymətlərin at oynatmasından, bunun müqabilində isə xidmət keyfiyyətinin həddsiz dərəcədə aşağı olmasından gileylənərdilərmi?

Bir məqamı da vurğulayaq. Ötən il nəinki yerli vətəndaşlar, hətta xaricdən gələn turistlərin Azərbaycanda qiymətlər və xidmətlər arasında uçurumdan narazı olduğuna dair media dəfələrlə yazdı. Hətta Dövlət Statistika Komitəsinin rəsmi rəqəmlərindən də bu narazılıq aydın göründü. Lakin nə dəyişdi? Bu il qiymətlər daha da yüksəldi, xidmətdən narazılıqlar bir az da yüksək səslə dilə gətirildi, Dövlət Turizm Agentliyinin ünvanına tənqidlər çoxaldı.

Yay boyunca vətəndaşlarımız sosial şəbəkələrdə bahalıqdan və pis xidmətdən şikayətləndilər, qeyd etdilər ki, adi bir kafedə və ya restoranda qiymətlər digər yerlərdən 3-4 dəfə bahadır. Hətta, yerli turistlərdən biri bir gölün kənarında adi çayın 60 manata satıldığını yazıb tənqid etmişdi. Üstəlik, yeni kəşf olunmuş "servis haqqı" dələduzluğu ilə müştərilərin soyulmasına atəş püskürənlərin nə sayı vardı, nə hesabı... Hətta bəzi yerlərdə meşəyə, çaya, gölə, şəlaləyə gedən yolu kəsib "bura giriş pulludur" deyərək baxmaq üçün pul tələb edildiyinə dair videogörüntülər ortaya çıxdı. Halbuki həmin yerlər xalqın ümumi istifadəsi üçündür.

Əgər dörd nəfərlik bir ailənin bir həftəlik istirahəti yay aylarında ortabab bir istirahət mərkəzində, 3-4 ulduzlu hoteldə belə o ailənin ən azı 2-3 aylıq büdcəsinə tən gəlirsə, Azərbaycan turizmi necə cəlbedici ola, dövlət büdcəsinə Fuad müəllimin dediyi kimi 10 milyard manatlıq gəlir gətirə bilər?!

Hələ onu demirik ki, xarici turistləri narazı salan isə yalnız yüksək qiymətlərlə aşağı xidmət arasındakı uyğunsuzluq deyil. Onları ən çox tarixi və mədəni abidələrlə tanış olmaq, maraqlı marşrutlarla (at üstündə, velosipedlə, qayıqla, piyada və s.) səyahət etmək maraqlandırır. Bu xidmətlər isə bizdə demək olar ki, yoxdur.

Kimsə təminat verə bilərmi ki, gələn yay mövsümündə, lap elə qarşıdan gələn qış turizm sezonunda da oxşar giley-güzarlar dilə gətirilməyəcək?

Bir neçə ay öncə yazdığımızı bir daha təkrarlayaq: Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev öz nikbin proqnozlarının doğrulmağını istəyirsə, yəni hədəf həqiqətən də 2026-cı ilə qədər ölkəyə gələn xarici turistlərin illik sayını 4 milyona, yerli turistlərin illik sayını 6 milyona, turizm üzrə xərcləmələrin illik məbləğini isə 10 milyard manata çatdırmaqdırsa, həqiqi mənada sözdən işə keçmək lazımdır. Turizm sektorunda rəqabət imkanları artırılmalıdır, məmurların bu sahədəki inhisarçı maraqlarının önünə keçilməlidir, qiymət və xidmət siyasəti istiqamətində konkret tənzimləyici addımlar atılmalıdır. Bu isə həm də Dövlət Turizm Agentliyinin öz fəaliyyətini yeni dövrün çağırışları əsasında, inkişaf etmiş ölkələrin təcrübəsinə uyğun qurmağı tələb edir.

***Sənan Mirzə***

# "İqtidarla müxalifət arasında müntəzəm dialoq qurulub" - Sahibə Qafarova

***"Son 20 il Azərbaycanın dövlətçilik tarixinə, dinamik və hərtərəfli dövrü kimi daxil olub. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilib".***



"Unikal" xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin bu gün keçirilən xüsusi iclasında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılıb: "Bütün bu nailiyyətlərin təməlində Ulu öndər Heydər Əliyevin başlatdığı və Prezident İlham Əliyevin inamla davam etdirdiyi uzaqgörən daxili və xarici siyasət xətti dayanır. İlham Əliyevin rəhbərliyi ilə ötən dövrdə ölkə iqtisadiyyatı heyrətamiz inkişaf yolu keçib. Azərbaycanda istehsal olunan ÜDM 3,6 dəfə artıb".

"Möhtərəm Prezidentin təşəbbüsü və rəhbərliyi ilə dövlət həyatının bütün sahələrində sistemli islahatlar həyata keçirilib. Ölkəmizin siyasi sistemi təkmilləşdirilib" - deyən spiker qeyd edib ki, altıncı çağırış Milli Məclisin və onun komitələrinin rəhbərliyində hakim Yeni Azərbaycan Partiyası ilə yanaşı, müxalif partiyaların nümayəndələri də təmsil olunur:

"Hakimiyyətin müxtəlif qolları arasında əməkdaşlıq əlaqələri daha da möhkəmlənib, iqtidarla müxalifət arasında müntəzəm dialoq qurulub".

***Anar***

# "Bu xidmətinə görə İlham Əliyev ayrıca mükafata layiqdir" - Razi Nurullayev

***"Bilirsiniz İlham Əliyevin ən böyük xidmətlərindən biri nədir? Dünyada baş qaldıran və günü-gündən daha da ruhlanan erməni separatizmini dayandırmaq. Erməni diasporunu zəiflətdi və onun liderlərindən biri olan Ruben Vardanyanı zərərsizləşdirdi, mənəvi cəhətdən sındırdı. Yoxsa, erməni separatizmi Türkiyədə, Gürcüstanda və Rusiyada da başlayacaqdı. Məhz bu xidmətinə görə də İlham Əliyev ayrıca mükafata layiqdir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən xüsusi iclasında deputat Razi Nurullayev deyib. O bildirib ki, xərçəng kimi yayılan "dənizdən-dənizə" erməni ideologiyası "dağ çayından su kanalına" səviyyəsinə endi.

"Prezident İlham Əliyevin etdiklərini və apardığı davamlı, zəncir kimi bir-birinə bağlı proseslərdən ibarət, eyni zamanda bir-birini məntiqi sonluqla tamamlayan, amma mürəkkəb bir siyasətin şahmat fiqurları kimi gedişlərini dünyanın heç bir hərbi və diplomatik məktəblərində öyrənmək mümkün deyil. Ona görə də bu siyasəti, diplomatiyanı, regionda və dünyada gedən prosesləri öz xeyrinə həll etmə bacarığını ayrıca bir fakültə kimi, mərkəz kimi öyrənmək lazımdır".

***Anar Kəlbiyev***

# "Prezident Cənubi Qafqazda separatizm ocağını söndürdü" - Deputat

***"XXI əsrin əvvəllərinə diqqət yetirsək, fəal 52 separatizm ocaqları mövcuddur. İlk dəfə separatizm ocaqlarının sayı azalıb və bu gün 51 aktiv separatizm ocağı var. Bu da Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi inqilabi dəyişiklikdir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən xüsusi iclasında deputat Elşad Mirbəşir oğlu deyib. Onun sözlərinə görə, XX əsr boyunca bir fakt mövcud deyil ki, separatizm ocağı söndürülsün:

"Azərbaycan Prezidenti Cənubi Qafqazda separatizm ocağını söndürməyə nail oldu. Bununla da qlobal təhlükəsizliyə mühüm töhfə verdi və ilk dəfə olaraq bu istiqamətdə nümunə yarada bildi. Hesab edirəm ki, Azərbaycan dövləti və Prezidentinin dünyada təqdim etdiyi nümunə gələcəkdə separatizmlə mübarizə ilə mayak rolunda çıxış edəcək", - deyə deputat bildirib.

# "Bölgədə İlham Əliyevin sözü olmadan qərar qəbul edilə bilməz" - Vitse-spiker



***"Bir sıra dövlətlərdə konstitusion idarəetmə quruluşunu dəyişməklə hakimiyyətdə qalanlardan fərqli olaraq İlham Əliyev yalnız ümumxalq seçkilərində xalqın səsini qazanaraq dəfələrlə qalib gələn dövlət başçısıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclis sədrinin I müavini Əli Hüseynli parlamentin bu gün keçirilən xüsusi iclasında çıxışı zamanı deyib. MM sədrinin müavini bildirib ki, Prezident müasir hüquqi və demokratik dünyada 20 il sabit, davamlı, amma həm də artan reytinqi olan çox nadir tarixi şəxsiyyətdir:

"Əslində İlham Əliyevin uğur tarixi daha dərindir. İlham Əliyev hələ ilk prezident seçkilərindən sonra radikal müxalifətin dövlət çevrilişi cəhdini, hakimiyyətdəki bəzi avantüristlərin hərəkətlərinin qarşısını da eyni qətiyyətlə almışdı. İndi Qarabağdakı qələbəmiz də, oradan ermənilər könüllü təxliyə edilirlərsə, radikal müxalif düşüncə Azərbaycandan birdəfəlik təxliyə olunmaqdadır. Hər kəs Qarabağın azad edilməsi ilə İlham Əliyevin yeni tarix yazmasının fərqindədir. Amma öncə İlham Əliyev tarixi yenidən yazdı. İlham Əliyev tarixi həqiqətləri söyləməklə cəmiyyətdəki populist illuziyalara son qoydu.

Tarixi həqiqətlər bəziləri üçün acı olsa da, gələcək nəsillərə həmin səhvlərə yol verməmələri üçün tövsiyələrdir. İlham Əliyevin təcrübəsini öyrənənlər çoxdur, lakin onu tədbiq edə biləcəkləri böyük sual altındadır. Çünki regionda məxməri inqilabların yetişdirdiyi başçılardan fərqli olaraq ancaq özü müstəqil olan İlham Əliyev kimi lider müstəqil qərarlar qəbul edən Ali Baş Komandandır. Regionda müharibəni, antiterror tədbirlərini və sülhü birləşdirib birgə həyata keçirən yeganə şəxsiyyət yalnız İlham Əliyevdir. İndi də bölgədə İlham Əliyevin sözü olmadan heç bir qərar qəbul edilə bilməz. Bu gün məhz ulu öndər Heydər Əliyev siyasəti Qafqazda sülhü təmin edəcək".

***Anar Kəlbiyev***

# XİN-də diplomatik xidmətə qəbul imtahanının nəticələri açıqlandı



***Dövlət İmtahan Mərkəzi tərəfindən 23 sentyabr 2023-cü il tarixində Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul olmaq istəyən namizədlər üçün xarici dil biliyinin "Dinləyib-anlama", "Oxuyub-anlama", həmçinin xarici dil və Azərbaycan dillərində analitik yazı bacarıqlarının yoxlanılması hissəsi, sentyabrın 24-də isə danışıq bloku üzrə imtahan keçirilib.***

"Unikal" xəbər verir ki, imtahan iştirakçıları nəticələr, cavab kartı və yazı işlərinin qrafik təsviri ilə DİM-in internet saytında tanış ola bilərlər.

Namizədlər imtahanın nəticələri haqqında məlumatı mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə iş nömrələrini 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.

Qeyd edək ki, imtahanın ikinci mərhələsinə birinci mərhələdə hər bir tapşırıq bloku üzrə 50%-dən yuxarı (çin, ərəb, fars, fransız, ispan, portuqal və ibri dillərini seçən namizədlər üçün isə 40%-dən yuxarı) nəticə göstərən 140 namizəd buraxılmışdır.

Xarici dil imtahanının hər iki hissəsində 137 nəfər iştirak edib.

Xarici dil fənni üzrə imtahanın balı həm hər bir bacarıq ("Dinləyib-anlama", "Oxuyub-anlama", "Yazı" və "Danışıq") üzrə ayrılıqda, həm də ümumi imtahan üzrə hesablanır. Bacarıqlar üzrə ballar hesablanarkən, toplanmış xam ballar əmsallara vurulur və toplanır. İmtahan üzrə toplanıla bilən maksimal bal 60-dır.

Azərbaycan dilində "Esse" yazısı üzrə toplanıla bilən maksimal bal 60-dır.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM tərəfindən 18 oktyabr 2023-cü il tarixindən etibarən telefon əlaqəsi vasitəsilə apellyasiya prosesi təşkil ediləcək. Apellyasiya komissiyasına müraciət etmək istəyənlər 13 oktyabr saat 10:00-dan 15 oktyabr saat 17:00-dək DİM-in internet saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Bir namizədin ərizəsi (müraciəti) üzrə ən çoxu 15 dəqiqə müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.

# Hacıbala Abutalıbov özünü hamıdan təcrid edib

## O hətta uzun illər rəhbərlik etdiyi paytaxta da gəlmir - Sabiq merlə bağlı yeni və bir-birindən maraqlı xəbərlər var...

***Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş başçısı və Baş nazirin sabiq müavini Hacıbala Abutalıbov bir neçə aydır ki, paytaxtdan uzaqda yaşayır. Hacıbala müəllimin, əsasən Azərbaycanın şimal rayonlarından birindəki malikanəsində yaşadığı bildirilir. Bu barədə "Unikal"a məlumat verən mənbənin sözlərinə görə, gələn il 80 yaşını qeyd edəcək Abutalıbovun səhhətində problemlər var. O həmin problemlər səbəbindən hətta bir müddət öncə Almaniyada müalicə alıb.***



Ardınca Azərbaycana qayıdan Abutalıbova həkimlər təbiət qoynunda yaşamağı məsləhət görüblər. Bundan sonra sabiq mer Qax rayonunun İlisu kəndinə köçüb. Hacıbala müəllimin həmin kənddə villası var. Bu villa Abutalıbov hələ Bakı Şəhər İcra Hakimiyyətinin başçısı olarkən tikilib və dəbdəbəsi ilə diqqət çəkir.

İlisu təbiətinin gözəlliyi və təmiz havası ilə bütün Azərbaycanda səfalı yer kimi məşhurdur.Bu baxımdan həkimlərin keçmiş merə verdiyi məsləhətə tam uyğun gəlir.

Lakin soyuq aylarda Abutalıbovun paytaxta qayıdacağı, bir az da dəqiqləşdirsək, Bakıətrafı kəndlərdən birində (Mərdəkan və ya Şüvəlanda) yerləşən villasında qalacağı da deyilir.

Onu da deyək ki, Hacıbala müəllimin özünü hamıdan təcrid etdiyi də bildirilir. Daha doğrusu, o, ən yaxın ailə üzvlərindən başqa kimsə ilə görüşmür. Böyük biznes şəbəkəsinə malik olan Abutalıbovun ticarət obyektlərinin idarəçiliyi ilə onun oğulları məşğul olur.

Daha bir maraqlı məqam sabiq merin bundan sonra özü və övladları barədə medianın yazdıqlarına reaksiya verməmək barədə qərar qəbul etməsidir. Hətta Hacıbala müəllimin yaxınlarından ona belə yazılar haqqında nəsə deməmələrini tapşırdığı da söylənir. "Yadınızdadırsa, bir neçə ay öncə Milli Məclisin deputatı Etibar Əliyev özünün "Facebook" səhifəsində Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısına aid villaların görüntülərini yaymışdı. Bununla da kifayətlənməyərək yazmışdı ki, "özünü mütrüb kimi göstərən bu şəxsin illərlə bağlı qalan ikicə villasına diqqət edin. Bunlardan biri Qaraçuxur qəsəbəsinin Rafiq Alıcanov küçəsində, digəri Şərq yaşayış massivində yerləşir. Görün nə qədər ərazini zəbt edib". Həmin paylaşımdan bir gün öncə isə deputat Milli Məclisin iclasında seçicilərinin Suraxanı rayonunun ərazisinin 4 nəfər tərəfindən zəbt olunması barədə etdikləri kollektiv müraciətləri əsasında çıxış etmişdi. O, bildirmişdi ki, həmin şəxslərdən biri də 5 il Suraxanı rayonunun icra başçısı işləmiş Hacıbala Abutalıbovdur. Lakin Hacıbala müəllim deputatın kifayət qədər sərt ittihamlarını cavabsız qoymuşdu. Halbuki bir-iki il əvvələdək keçmiş mer mətbuata, ictimaiyyətə xeyli açıq idi, barəsində deyilənlərə, yazılanlara reaksiya verirdi. İndi isə deputatın Milli Məclis tribunasından səsləndirdiyi ittihamları belə, cavabsız qoydu. Bu, təsadüf deyil. Hacıbala müəllim özünü ətrafdan təcrid edib, barəsində nə deyildiyini, nə yazıldığını öyrənmək, eşitmək istəmir" deyə mənbəmiz vurğulayıb.

H.Abutalıbov Baş nazirin müavini postundan təqaüdə göndərilməsinin ardından jurnalistlərə açıqlamasında bundan sonra elmi fəaliyyətlə məşğul olacağını demişdi. Lakin keçmiş mer həmin planının da üstündən xətt çəkib. "Bilirsiniz ki, Hacıbala müəllim məmur karyerasına başlamadan öncə elmi fəaliyyətlə məşğul olub. SSRİ Elmlər Akademiyasının müxbir üzvü, Lenin mükafatı laureatı Yevgeni Qrossun və Marina Bellenin rəhbərliyi altında 1976-cı ildə namizədlik dissertasiyasını müdafiə edib. 1987-ci ildə isə Lenin mükafatı laureatı akademik Aleksandr Kaplyanskinin rəhbərliyi ilə həmin institutda fizika-riyaziyyat elmləri doktoru yüksək elmi dərəcəsi adını alıb. 1988-ci ildə Fizika İnstitutunda elmi fəaliyyətə başlayıb. Amerika, İngiltərə, Fransa, Almaniya, Rusiya və sair dövlətlərin qabaqcıl elmi jurnallarında 200-dən artıq elmi məqaləsi çap olunub. Bundan başqa, onun həm də 30-dan çox elmi ixtiranın müəllifi olduğu deyilir. Bildirilir ki, Abutalıbovun rəhbərliyi altında 10-dan çox elmlər doktoru və elmlər namizədi yetişib. 1988-ci ildən Fizika İnstitutunda "Yarımkeçiricilərin kvant elektronikası" laboratoriyasının müdiri olub. Lakin 1995-ci ilin fevral ayından elmi fəaliyyətinə son qoyub, dövlət strukturlarında işləməyə başlayıb. Məmurluqla vidalaşıb təqaüdə çıxdıqdan sonra isə Hacıbala müəllim həqiqətən elmi fəaliyyətini bərpa etmək istəyirdi. Bir az dincəlib, müalicə olunub Fizika İnstituna, illərlə rəhbəri olduğu laboratoriyaya qayıtmaq niyyətində idi. Lakin Milli Elmlər Akademiyasındakı son islahatlar onu həmin fikrindən daşındırdı" deyə qaynağımız bildirib.

***Toğrul Əliyev***

# Monopolist məmurlar hədəfdə: Şəxsi biznes kanalları bağlanır

## Azərbaycanda inhisarçı oliqarxlar üçün "yolun sonu" göründü

***Ötən həftə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin keçirilən iclasında - Rəqabət Məcəlləsinin ikinci oxunuşda müzakirəsi zamanı iqtisadiyyat naziri Mikayıl Cabbarov maraqlı fikirlər səsləndirdi. O bildirdi ki, Prezident haqsız rəqabətlə mübarizə aparmaq barədə tapşırıq verib.***

"Sağlam rəqabət ölkədə iqtisadi inkişafı təmin edən əsas amillərdəndir. Ədalətli rəqabətdən, qiymətlərin azalmasından, məhsul çeşidinin genişlənməsindən təkcə sahibkarlar, dövlət deyil, həm də istehlakçılar, sadə vətəndaşlar qazanır. Rəqabətin qarşısında süni maneələrin olması hibkarlar deyil, qiymətlərin aşağı düşməsi və məhsul çeşitlərinin artırılması sayəsində sadə vətəndaşlar qazanır".

M.Cabbarovun bu çıxışı Azərbaycanda inhisarçılığın, nəhayət ki, sona çatacağına dair ümidləri artırdı. Xüsusilə, Prezidentin tapşırığı ölkədə monopolistlər üçün yolun sonunun göründüyünü deməyə əsas verir. İnhisarçılığın Azərbaycan iqtisadiyyatı üçün "qara yaraya" çevrildiyini, onun inkişafına qarşı yönəldiyini və bu baxımdan tormozlayıcı rol oynadığını söyləmək artıqdır. Sözügedən problemin kökü uzun illər əvvələ gedib çıxır. Lakin 2010-cu illərin ortalarından başlayaraq biz yeni tendensiya müşahidə edirik. Söhbət ilk növbədə bir sıra

Sözügedən proses yəqin ki, bu gün də inhisarçı meyllərdən çəkinməyən bəzi iri məmurların da postları ilə vidalaşmasına gətirib çıxaracaq. Nəticədə onların istər ailə üzvləri, istərsə də digər yaxın qohum-əqrəbaları tərəfindən yaradılan monopolist şirkətlər bazarı tərk etmək məcburiyyətində qalacaq, sağlam rəqabət mühitinin tam şəkildə bərqərar olmasının önündəki son maneələr də aradan qalxacaq.

Bu mənada həm Prezidentin məlum tapşırığından, həm də Rəqabət Məcəlləsinin artıq Milli Məclisdə ilk oxunuşda qəbulundan sonra xeyli monopolistin özlərini "tikan üstündə" hiss etdiyini düşünmək üçün əsaslar var.



bir qrup sahibkarın maraqlarına xidmət edir", - deyə nazir çıxışında vurğuladı. M.Cabbarov əlavə etdi ki, "İşgüzar mühitdə, xüsusilə də vergi-gömrük rejimində, sahibkarlarla ünsiyyətdə dəyişiklik olmadan rəqabətin səmərəli və effektiv şəkildə təmin edilməsi gözlədiyimiz effekti verməyəcək. Bunun sadə səbəbi var. Rəqabət bərabər şərait deməkdir. Əgər biz bu şəraiti fiskal çərçivədə vergi yükündə əks etdirə bilmiriksə, o zaman müəyyən dövrə qədər rəqabətin başqa hansı fərqli elementlərindən danışmağa dəyər? Uzun müddət idi ki, bizə Rəqabət Məcəlləsinin qəbul olunmaması ilə bağlı müəyyən suallar ünvanlanırdı. Düşünürəm ki, bu suallara əsas cavabım belə olardı".

Nazir həmçinin bildirdi ki, iqtisadi siyasətin əsas məqsədinə inhisarçılığın qarşısının alınması, resursların səmərəli istifadə edilməsi və ictimai mənafelərin qorunması aiddir: "Sağlam rəqabət ölkənin ictimai inkişafının təmin edilməsində əsas amillərdən biridir. Ədalətli rəqabətdən təkcə sa-

məmur oliqarxların tədricən sıradan çıxarılmasından gedir. Ziya Məmmədov, Tağı Əhmədov, Misir Mərdanov, Füzuli Ələkbərov, mərhum Fazil Məmmədov, Cahangir Əsgərov, Hacıbala Abutalıbov, Etibar Pirverdiyev kimi iri məmurlar eyni zamanda nəhəng biznes imperiyasının sahibləri idilər, iqtisadiyyatın müxtəlif sahələrində monopolist mövqelərə yiyələnmişdilər.

Adları çəkilən və çəkilməyən iri məmurlar, bir sıra deputatlar öz kreslolarını, mandatlarını, dolayısı ilə imtiyazlarını itirdikdən sonra onların bazardakı inhisarçılığı da yavaş-yavaş "əriməyə" başladı. Proses davam edir. Hələ də müəyyən iri məmurların himayəsindəki böyük şirkətlər, iş adamları, sahibkarlar monopolizmlə məşğuldurlar. Lakin istər Prezidentin tapşırığı, istərsə də Rəqabət məcəlləsinin nəhayət ki, qəbul edilmə ərəfəsində olması Azərbaycan iqtisadiyyatının üzərinə qara kölgə kimi çökən inhisarçılıq bəlasının yaxın zamanlarda köklü şəkildə aradan qalxa biləcəyinin siqnallarıdır.

Onlar da "qürublarının yaxınlaşdığını", illər uzunu bazarda haqsız şəkildə, sadəcə vəzifə səlahiyyətləri və ya "krışalıq" hesabına qazandıqları hegemon mövqeləri itirməyin bir addımlığında olduğunu, yəqin ki, yaxşı anlayırlar. Odur ki, onların böyük ehtimalla gecələr yuxuları qaçır, gündüzlər isə gözlərinə qaranlıq görünür.

Olsun! Lap yaxşı. Elə ictimaiyyətin uzun müddətdən bəri gözləntiləri də bu idi. Bir ovuc məmur-oliqarx və onların ətrafındakılar xaric hər kəs nə vaxtdır ictimai rifahın, firavanlığın nəhayət ki, şəxsi maraqlardan, rahatlıqdan önə çıxacağı günün xəyalını qurur. Ümid edək, həmin gün həqiqətən də çox uzaqda deyil.

Əslində təəccüblü heç nə yoxdur: onillərdir haqsız rəqabət şəraitində "qaz vurub qazan doldurmağın", büdcə pullarını havaya sovurmağın, xalqın cibinə girməyin, sadə vətəndaş bir qismət çörəyə möhtac ikən kirli iqtisadiyyat yolu ilə milyonlar əldə eləməyin sonu çatmalıydı, ya yox?!

***Sənan Mirzə***

# "Xankəndidə İlham Əliyevin adına məscid tikilsin" - Qüdrət Həsənquliyev



***"Xankəndidə İlham Əliyevin adını daşıyan məscid inşa olunsun".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin deputatı Qüdrət Həsənquliyev İlham Əliyevin Prezident seçilməsinin 20-ci ildönümünə həsr olunmuş xüsusi iclasda bildirib.

"Prezident İlham Əliyevin adını əbədiləşdirmək üçün qanun qəbul edə bilərik. Qanunda Xankəndində onun adını daşıyan möhtəşəm məscidin, Qarabağda isə onun adını daşıyan yeni şəhərin salınması nəzərdə tutula bilər", - deyə millət vəkili qeyd edib.

# Komitə sədri Xankəndi sakinləri ilə görüşdü



***Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Xankəndidən məcburi köçkün düşmüş vətəndaşların bir qrupu ilə görüşüb.***

"Unikal" xəbər verir ki, torpaqlarımızın işğaldan azad edilməsinin, ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunmasının xalqımızda böyük qürur hissi doğurduğu qeyd olunub.

Xankəndidən olan məcburi köçkünlər doğma yurda qayıtmaq imkanın yaranmasından hədsiz sevinc hissi keçirdiklərini və buna görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdar olduqlarını bildiriblər. Xankəndi şəhərinin inzibati ərazisinə daxil olan Kərkicahan qəsəbəsinin azərbaycanlı sakinlərinin erməni separatçılarına və işğalçılarına qarşı mübarizədə xüsusi fədakarlıqlar göstərdikləri xatırlanıb, şəhidlərin ruhuna ehtiram ifadə edilib.

Bir daha vurğulanıb ki, Prezident İlham Əliyev məcburi köçkünlərin sosial problemlərinin həllinə daim xüsusi diqqət yetirir, onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün zəruri tədbirlər görür. Bu sahədə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da mühüm xidmətləri vardır.

İşğaldan azad edilmiş ərazilərdə, dövlətimizin başçısının təsdiqlədiyi Dövlət Proqramı əsasında, genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, doğma yurd yerlərimizə Böyük Qayıdışın başlandığı məmnunluqla qeyd edilib. Bildirilib ki, Xankəndinin 31 il əvvəl ata-baba ocağını tərk etmək məcburiyyətində qalmış azərbaycanlı sakinləri də geri dönmək, öz ev-eşiklərinə sahib çıxmaq arzusundadırlar və bu arzunun tezliklə gerçəkləşəcəyinə əmindirlər. İndilikdə isə onlar, müvafiq dövlət orqanlarının icazəsi olduğu təqdirdə, Xankəndinə, Kərkicahana baş çəkmək, doğma yurdu ziyarətə getmək üçün şərait yaradılmasını xahiş edirlər.

Görüş iştirakçılarının müraciətləri qeydə alınıb, sualları cavablandırılıb, onlara Böyük Qayıdış prosesi ilə bağlı ətraflı məlumat verilib.

# "Şəhidlərin qatilləri DTX-nin binasında ifadə verirlər" - Deputat

***"Bilmirəm bu mistikadır, yoxsa nədir, biz bu gün burada qələbəmizdən danışırıq, 100 metr yaxınlıqda Şəhidlər xiyabanında bizim müqəddəslərimiz rahat uyuyur, 150 metr o yanda həmin şəhidlərin qatilləri DTX-nin binasında ifadə verirlər".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən xüsusi iclasında deputat Elşən Musayev deyib.

"Bəlkə də həmin şəhidlərin məzarlarına pəncərədən baxabaxa ifadə verirlər. Hərdən insana qəribə gəlir ki, bu reallıq deyil, yuxudur. Bu, reallıqdır və onu Prezident İlham Əliyev öz zəkası, cəsarəti ilə yaradıb. Eşq olsun, mənim Prezidentimə", - deyə deputat bildirib.

***Anar Kəlbiyev***

# Bu tarixdə dövlət qulluğuna qəbul imtahanı keçiriləcək



***Dövlət İmtahan Mərkəzi tərəfindən 12 noyabr 2023-cü il tarixində dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi və inzibati rəhbər (A növü) vəzifələr üzrə dövlət qulluğuna qəbul imtahanı keçiriləcək.***

DİM-dən ”Unikal”a bildirilib ki, imtahanlarda iştirak etmək istəyən namizədlər DİM-in portalında “Şəxsi kabinet”lərini (şəxsi kabineti olmayanlar) yaratmalıdırlar. “Şəxsi kabinet”də olan pul hesabına vəsait daxil etmək üçün müxtəlif ödəniş üsullarından (ətraflı məlumat www.payment.dim.gov.az saytında verilib) istifadə etmək olar. “Şəxsi kabinet” yaradıldıqdan və hesaba lazımi vəsait daxil edildikdən sonra imtahanlarda iştirak etmək üçün DİM-in internet portalında müvafiq olaraq “Dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak etmək üçün onlayn qeydiyyat” və ya “Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi” xidmətləri vasitəsilə qeydiyyatdan keçmək lazımdır. Qeydiyyatdan keçən və imtahanda iştirak etməyən namizədlərin ödədiyi məbləğ geri qaytarılmır.

Dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələrə qəbul üzrə test imtahanı

İnzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin 2023-cü il noyabr ayında keçiriləcək test imtahanında iştirak etmək üçün qeydiyyat 12 oktyabr 2023-cü il saat 12:00-dan 9 noyabr 2023-cü il saat 12:00-dək aparılacaq. İmtahan Bakı şəhərində keçiriləcək və namizədlər üçün 50 yer ayrılıb.

**Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə imtahan**

Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanı AB, AC, BA qrupları üzrə 12 noyabr saat 10:00-da kompüter vasitəsilə, BB qrupu üzrə isə saat 11:00-da kağız daşıyıcılar vasitəsilə keçiriləcək. Test imtahanında iştirak etmək istəyən namizədlərin qeydiyyatı Mərkəzin internet portalında BB qrupu üzrə 1 noyabr saat 12:00-dək, AB, AC, BA qrupları üzrə isə 9 noyabr saat 12:00-dək həyata keçiriləcək.

# Mərkəzi Çağırış Komissiyasının iclası keçirildi

***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Aparatında vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması ilə bağlı rayon (şəhər) çağırış komissiyalarına rəhbərlik və onların fəaliyyətinə nəzarət etmək üçün Nazirlər Kabinetinin müvafiq Qərarı ilə yaradılmış Mərkəzi Çağırış Komissiyasının iclası keçirilib.***

SHXÇDX-dən ”Unikal”a verilən məlumata görə, Xidmət rəisi Mürsəl İbrahimovun sədrliyi ilə keçirilmiş iclasda komissiyanın üzvləri olan mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin müavinləri iştirak ediblər. İclasda Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Sərəncamının icra vəziyyəti və gündəliyə çıxarılan məsələlər müzakirə olunub.SHXÇDX tərəfindən Silahlı Qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə keyfiyyətlə komplektləşdirilməsinin uğurla davam etdirildiyi diqqətə çatdırılıb. Çağırışçıların Silahlı Qüvvələr üzrə bölgüsü prosesində obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə kompleks tədbirlərin həyata keçirildiyi vurğulanıb.

İclasın sonunda gündəlikdə olan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

# Bakı-Sumqayıt-Bakı "Ekspres" qatarı fəaliyyətə başlayır

***”Azərbaycan Dəmir Yolları” QSC-nin Bakı-Sumqayıt-Bakı ”Ekspres” qatarı fəaliyyətə başlayır.***

”Unikal” səhmdar cəmiyyətinə istinadən xəbər verir ki, məqsəd sərnişin sıxlığını azaltmaqdır. ”Ekspres” qatarı heç bir stansiyada dayanmadan birbaşa hərəkət edəcək.

Qatar iş günləri Bakıdan Sumqayıta saat 06:50-də və 18:05-də, Sumqayıtdan Bakıya isə saat 07:45-də və 20:05-də hərəkət edəcək.

# Supermarketlərin endirim kampaniyaları barədə sensasion iddialar

## Həftənin replikası: Müştərilərə güzəştli qiymətlərlə satılan məhsulların üzü astarından baha gəlir...



***Son zamanlar Azərbaycanın iri supermarketlərinin və supermarket şəbəkələrinin endirim kampaniyaları barədə reklamalara mütəmadi rast gəlinir. Həmin reklamlarla birgə bu endirim kampaniyaları da müzakirə mövzusuna çevrilib.***

Əksəriyyətin fikrincə, xüsusən güzəştli qiymətlərlə satılan ərzaqlarla bağlı istehlakçıların sağlamlığını təhdid edə biləcək nüanslar var. Misal üçün, qida məsələləri üzrə ekspert Ağa Salamov bəzi marketlərin endirimə qoyduğu məhsulların keyfiyyəti ilə bağlı danışarkən ilginc məqamlara toxunub. Onun sözlərinə görə, çox vaxt endirimə qoyulan məhsullar istifadə müddətinin bitməsinə az qalmış məhsullar olur: “Vaxtının bitməsinə az qalmış o demək deyil ki, bu məhsulu qoyulan tarixdə yesəniz, sizə nəsə olacaq. Xeyr, elə deyil. Doğrudur, bəzi riskli məhsullar var ki, məsələn, balıq, toyuq, ət - bunlardan hazırlanan digər qidalar vaxtı keçəndə yeyilərsə, zəhərlənmə baş verə bilir. Quru məhsullar, məsələn, atışdırmalıq qidaları, konservləri müddəti keçən gün də yesək, zəhərlənmə verməz. Bundan qorxmaq lazım deyil. Əsas diqqət etmək lazımdır ki, məhsulun vaxtı keçməsin. Belə məhsullar satışdan yığışdırılmalı və məhv edilməlidir” (valyuta.az).

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov isə “yenicag.az”a deyib ki, hansısa marketdə endirimli qiymətlə satışa qoyulan vaxtı keçmiş məhsul aşkar olunarsa, qanunvericilikdə həmin sahibkar üçün 1500 manat cərimə nəzərdə tutulur: “Bu səbəbdən, keçmişə baxdıqda, hazırda vəziyyətin nisbətən yaxşılaşdığını söyləyə bilərik. Təsadüfi hallarda hansısa marketin qayda pozuntusuna yol verərək vaxtı keçmiş məhsulu endirim şərti ilə satdığı müşahidə edilir. Marketdə vaxtı keçmiş məhsullar varsa, onlar istehsalçıya geri göndərilir. İstehsalçı isə həmin məhsulu yenidən emal edə, yaxud da ümumiyyətlə, dövriyyədən çıxara bilər. Ancaq istehsalçıya geri göndərilən məhsulun hansı prosesdən keçdiyini heç kim izləmir. Nəticədə isə qablaşdırmadakı tarixi yeni göstərilsə də, satışa çıxarılan o məhsulun köhnə olması istisna edilmirg Vətəndaşların qida təhlükəsizliyinin təmin olunması çox vacib məsələdir”.

Yaxud, başqa fakt: sosial şəbəkələrdə vətəndaşlar dəfələrlə belə halla üzləşdiklərini yazırlar -endirimli qiymətlərlə hər hansı məhsul təklif olunur. Həmin cəlbedici təklifə inanan istehlakçılar həmin məhsulu sevincək alaraq irəli düşdüklərini zənn edirlər. Lakin marketin kassasında fərqli vəziyyət yaranır. Endirimli məhsul müştəriyə köhnə qiymətlə satılır. Sadəcə, alış-veriş edən əksər alıcılar buna fikir vermirlər və yalnız evə gəlib qəbzə baxanda aydın olur ki, aldadıblar. Qısası, bəzən kassalarda mal endirimdən əvvəlki məbləğlə hesablanaraq satılır.

Supermarketlərin endirim kampaniyaları ilə bağlı iddialar bununla da bitmir.

Lakin fərqli iddialar da var. “Unikal”ın araşdırması zamanı məlum olub ki, bir çox marketlər şəbəkəsi sırf alıcıları stimullaşdırmaq, onları “tora salmaq” üçün müxtəlif aldadıcı kampaniyalardan istifadə edir. Məsələn, qiymətlərdə müxtəlif güzəştlər edildiyi deyilsə də, əslində bu baş vermir. Alıcılar şişirdilmiş qiymətə aldığı məhsullara görə nəinki büdcəsinə qənaət edir, əksinə, daha artıq xərcə düşürlər.

Bu cür iddialar əsassız deyil. Belə ki, bir müddət öncə supermarketlərin birində belə bir hadisə yaşanmışdı: endirim tətbiq edilmiş məhsullardan biri “Loreal excellence creme” saç boyasının endirimsiz qiyməti 11 manat 85 qəpik olduğu halda market endirimə qoyarkən boyanın əvvəlki qiymətinin 15 manat 19 qəpik olduğunu qeyd eləmişdi. Həmin məqam fotogörüntülərlə də təsdiqlənmişdi.

Hər halda görünən odur ki, büdcəsinə qənaət etmək adına supermarketlərin endirim kampaniyalarına maraq göstərən istehlakçılar bir neçə məqama xüsusi diqqət yetirməlidirlər. Məsələn, endirimli məhsulların üzərindəki son istifadə tarixinə mütləq nəzər salmalı, həmin tarixin bitiminə az qalmış məhsullardan uzaq dayanmalıdırlar. Və ya, alış-veriş çeklərini elə iri marketlərin kassası qarşısında, ən pis halda supermarketləri tərk etmədən yoxlamalı, endirimli məhsulu həqiqətən güzəştli qiymətə alıb-almadıqlarını kontrol eləməlidirlər. Bu cür incə nüansları gözdən qaçırmaq ailə büdcəsinə qənaət etmək istəyənləri əks-situasiya ilə qarşılaşdıra, obrazlı desək, endirimli qiymətə aldıqlarını düşündükləri məhsulun üzü onlara astarından baha başa gələ bilər...

***Toğrul Əliyev***

## 5.3.7. işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Böyük Qayıdışın təntənəsi

## Şəhid anası: "Oğlum Füzuliyə məndən tez, şəhid karvanında qayıtdı"

***"Bu günü çox gözləmişdim. Ən böyük arzum öz doğma Füzulimə qayıtmaq idi. Bu gün bu arzuma çatdım. Arzum hər üç balamın əlindən tutub Füzuliyə qayıtmaq idi. Amma mən Füzuliyə şəhid anası kimi qayıtdım. Heç inanmazdım ki, oğlum mənim doğulduğum torpağa məndən tez çatacaq. Bu günkü köç karvanında oğlumu çox axtardım. Amma artıq o, Füzuliyə qayıtmışdı, məndən əvvəl, şəhid karvanında".Ötən gün***

Füzuliyə köçən 22 ailə arasında Azərbaycanın sentyabrın 19-20-də keçirdiyi lokal antiterror əməliyyatı zamanı şəhid olan Ülvi Mikayılovun anası Günel Abbasova da var.



G. Abbasova deyir ki, Füzulini 31 il əvvəl, 10 yaşında tərk edib. Uşaqlığının keçdiyi doğma yurda qayıtmaq arzusu illər keçsə də onun xəyalından çıxmayıb. Füzulidə qurduğu evciyin xatirəsini özü ilə bərabər əvvəl Beyləqana, sonra Bakıya gətirib. Füzuli işğaldan azad olunduqdan sonra üç övladı ilə birgə doğma yurda qayıtmağın həsrəti ilə yaşayırdı. Nəhayət o gün çatsa da, onun bir gözü gülür, bir gözü ağlayır.

"Bu gün çox sevinirəm ki, öz doğulduğum yurduma, doğma Füzuliyə qayıtmışam. Kədərliyəm ki, oğlum bu günü görmədi. Ülvinin ən böyük arzusu mənimlə bura qayıtmaq idi. Amma o məndən tez qovuşdu bu arzusuna. Onu vəsiyyətinə uyğun Füzulidə dəfn etdik. Artıq balamdan ayrı qalmayacam. Dövlət burada mənə ev verib. Bizim köhnə məhləmizin yerində yeni bina tikilib. "Böyük Qayıdış" proqramına uyğun olaraq biz də Fizuliyə qayıtmışıq" deyə şəhid anası bildirib.

O, deyir ki, Füzulinin işğaldan azad edilməsi ilə Azərbaycan xalqının 30 illik həsrəti başa çatıb: ""Fəxr edirəm ki, biz övladlarımızın qəhrəmanlığı sayəsində torpaqlarımıza qovuşduq. 31 il idi Vətən həsrəti ilə yaşayırdıq. Övladım və digər qəhrəman oğullarımız öz canından keçdi və bizləri Vətən həsrətindən xilas etdi. Bizim qədər övladlarımızın da ən böyük arzusu bu torpaqlara qovuşmaq idi. İndi arzularımız gerçək olub, doğma yurdumuzdayıq. Ülvi hər zaman deyirdi ki, biz o torpaqlara qayıdacağıq, elə ilk qayıdan da onlar oldu. Vətən həsrətinə öz canları bahasına son qoydular. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun gücü sayəsində bizlər yenidən doğma yurdumuza qovuşduq. İndi Füzuli torpaqları bizlər üçün həm də ziyarətgah yeri oldu. Ona görə ki, bu torpaqlar uğrunda övladlarımız ən uca məqama şəhidlik zirvəsinə ucalıb. Tarix yazan qəhrəmanlar olaraq onlar əbədi qəlblərdə yaşayacaq və hər zaman tarix kitablarında xilaskarımız olaraq qalacaqlar".

Onu da qeyd edək ki, Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilən məlumata görə, yeni köçürülən ailələrə mənzillərin açarlarının təqdimat mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəliyinin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər. Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bu mərhələdə Füzuli şəhərinə daha 22 ailə - 59 nəfər köçürülüb. Bununla da Füzuli şəhərində 187 ailə, yəni 661 nəfərin daimi məskunlaşması təmin edilib.

Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına müraciətində bildirib ki, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" proqramı milli prioritetlərimiz sırasındadır.

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, uğurla icra edilən proqram çərçivəsində bu günə qədər Laçın, Füzuli şəhərlərinə, Ağalı, Zabux və Talış kəndlərinə köçkünlərin qayıtması təmin olunub: "Növbəti 3 ildə 100 minə qədər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır. Həyata keçirilən layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına xidmət etməklə, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün əlverişli şərait yaradır".

İlham Əliyev bu günlərdə Böyük Qayıdış Proqramından da söz açıb. "Böyük Qayıdış Proqramı haqqında danışarkən deyə bilərəm ki, həmin proqram bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Təkcə bərpa etmək deyil - burada müasir texnologiyalar, "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir.İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra bu günədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırdığımız minimum büdcə 2,4 milyard ABŞ dolları olacaqdır. Bu, təbii ki, parlamentdə yenidən müzakirə ediləcək və dediyim kimi, Azərbaycan bunu öz şəxsi dövlət vəsaiti hesabına həyata keçirir. Biz heç bir maliyyə dəstəyi, heç bir maliyyə yardımı almırıq. Burada istisna iki qardaş ölkədir - Özbəkistan və Qazaxıstan prezidentləri çox səxavətli şəkildə bizə biri məktəb, biri isə incəsənət mərkəzini hədiyyə edib. Özbəkistan Füzulidə məktəb tikdi, digəri isə yekunlaşmaq üzrədir.Yəni, bu, Azərbaycan üçün çox böyük maliyyə yüküdür. Ancaq Böyük Qayıdış Proqramının icrası bizim üçün bir nömrəli vəzifədir.İnsanlar erməni işğalından çox əziyyət çəkiblər, çətin şəraitdə yaşayıblar, mənəvi çətinliklərlə üzləşiblər. Onlar özlərinin haqlı hüquqlarından məhrum ediliblər, öz Vətənlərindən məhrum ediliblər, qəbiristanlıqlarını ziyarət etməkdən məhrum ediliblər. Yeri gəlmişkən, qəbiristanlıqların böyük bir hissəsi işğalçı qüvvələr tərəfindən tamamilə dağıdılıb. Onlar bu imkanı, bu fürsəti 30 il gözləyirdilər ki, buraya qayıda bilsinlər. İkinci Qarabağ müharibəsi - bizim şanlı Qələbəmizlə bitən müharibə onlara bu şəraiti yaratdı. Bu gün onların bizdən gözləntiləri odur ki, onları tezliklə bu yerlərə qaytaraq. Böyük Qayıdış Proqramı və onun icrası artıq imkan vermişdir ki, keçmiş məcburi köçkünlər Laçın şəhərinə qayıtsınlar, Füzuli şəhərinə qayıtsınlar, Ağalı kəndinə qayıtsınlar, Talış və Zabux kəndlərinə qayıtsınlar. Yəni, bu gün 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Qarşıdan gələn illərdə çox böyük, irihəcmli yaşayış layihələri həyata keçiriləcək, xüsusən də Şuşa və digər şəhərlərdə. Bu, bizim proqramın tərkib hissəsidir" deyə prezident vurğulayıb.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## "Azərbaycanla müqayisə ediləcək ölkələr barmaqla sayılacaq qədərdir" - AMEA prezidenti

***"Prezident İlham Əliyevin 20 illik möhtəşəm marafonunda Vətən müharibəsi zamanı qazanılan zəfər böyük əhəmiyyətə malik olan hərbi-siyasi hadisə kimi Azərbaycan tarixinə həkk olunub".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli parlamentin bu gün keçirilən xüsusi iclasında çıxışı zamanı deyib.

AMEA prezidenti bildirib ki, 44 günlük müharibə ilə xalqımızı 30 illik işğaldan dövründən azad etmiş, bir günlük antiterror tədbirləri ilə ölkəmizi tam müstəqil etdi: "Bu dünya tarixində hər hansı dövlət başçısı, eləcə İlham Əliyev üçün xalq və dövlət qarşısında icra olunan müqəddəs missiyadır. Azərbaycan xalqı xoşbəxtdir ki, onun liderini ilk növbədə həm doğma xalqı, tam mənada isə beynəlxalq ictimaiyyət XXI əsrin liderlərindən biri kimi qəbul edir. Bu, bizim üçün böyük iftixardır".

İ.Həbibbəyli qeyd edib ki, dünyada inkişaf templərinə görə Azərbaycanla müqayisə ediləcək ölkələr barmaqla sayılacaq qədərdir: "Azərbaycanda bütün sahələr üzrə davamlı inkişaf sürətlə gedir. Ölkəmizdə istər elm, istər təhsil, istər mədəniyyət, ziyalılıq İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 ildə özünəməxsus şərəfli yol keçib. Onun 20 ilinin hər ili möhtəşəmdir. Hesab edirəm ki, dövlət başçısının adı ilə bağlı 20 il "Heydər Əliyev İli"nə ən böyük hesabatdır".

***Anar Kəlbiyev***

## Şəhid Süleyman Mehdiyevin qızı dünyaya gəldi

***Sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatları zamanı şəhid olan Süleyman Mehdiyevin qızı dünyaya gəlib.***



"Unikal" xəbər verir ki, körpəyə Oksana adı verilib.

Şəhid övladının zəruri xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb. Bu məqsədlə 1 000 AZN vəsait ananın hesabına köçürülüb. Dünyaya yeni göz açan körpənin adına isə depozit hesabı açılacaq və 5 000 AZN vəsait onun hesabına yerləşdiriləcək.

Qeyd edək ki, Mehdiyev Süleyman Mansur oğlu 1982-ci ildə Ağdaş rayonunun Qarağan Şıxlar kəndində anadan olub. O, sentyabrın 21-də doğulduğu kənddə dəfn olunub.

Şəhidin yeni doğulmuş qızından əlavə, 6 yaşında oğlu da yadigar qalıb.




# Komitə sədri Dağıstanın Azərbaycan icmasının nümayəndələrini qəbul etdi

***Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Bakıda səfərdə olan Dağıstan Respublikasının Azərbaycan icmasının nümayəndə heyətini qəbul edib.***

"Unikal" xəbər verir ki, qonaqları səmimi salamlayan Komitə sədri bu səfərin əlamətdar bir vaxta - həm Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, həm də Dağıstan xalqının böyük oğlu Rəsul Həmzətovun 100 illik yubileyləri ilinə təsadüf etdiyini bildirib.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mövcud olan dostluq münasibətlərinin günügündən dərinləşdiyini deyən sədr bu amilin Dağıstan-Azərbaycan əlaqələrinin inkişafına təkan verdiyini vurğulayıb. Görkəmli dövlət xadimi, Azərbaycanın böyük oğlu Əziz Əliyevin Dağıstana rəhbərlik edərkən yerli xalqları sürgün olunmaqdan xilas etdiyi, pandemiya başlayarkən Rusiya-Azərbaycan sərhədində qalmış azərbaycanlılara yerli hakimiyyət orqanları ilə yanaşı, Dağıstan xalqının da yardım əlini uzatdığı məmnunluqla xatırlanıb.

Səmimi qəbula görə təşəkkür edən qonaqlar Azərbaycanın bütün ərazisində dövlət suverenliyinin bərpa olunması münasibətilə Azərbaycan xalqını təbrik edib, bu tarixi Zəfərə imza atmış Müzəffər Ali Baş Komandan İlham Əliyevin və şəhidlərimizin xidmətlərinin heç vaxt unudulmayacağını bildiriblər. Eyni zamanda onları maraqlandıran məsələlərlə bağlı fikirlərini çatdırıblar.

Görüşün sonunda xatirə şəkli çəkilib.

Qeyd edək ki, cari ilin fevral ayında Bakı şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında iqtisadi və humanitar əlaqələr üzrə Hökumətlərarası Komissiyanın iclasında əməkdaşlığın əsas istiqamətləri üzrə tədbirlər planı təsdiq olunub. Azərbaycan tərəfdən humanitar istiqamət üzrə icraçılardan biri Diasporla İş üzrə Dövlət Komitəsi olub. Plana əsasən, Dağıstanda ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinin, Azərbaycanda isə Dağıstanın görkəmli ictimai-siyasi xadimi, şair və yazıçı Rəsul Həmzətovun 100 illik yubileyinin qeyd olunması qərara alınıb. Yubiley tədbirində iştirak etmək üçün Dağıstan Respublikasının Azərbaycan icmasının nümayəndələri Bakıya gəlib.

Qonaqlar Bakıda Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edib, ümummilli lider Heydər Əliyevin və qəhrəman şəhidlərimizin xatirələrini ehtiramla yad ediblər.

# Goranboyda pambıq yığımı aparılır



***Goranboy rayonunda kənd təsərrüfatının bir çox sahələri kimi, pambıqçılıq da inkişaf etdirilir.***

Rayon ərazisində "Azərpambıq" MMC, " MKT İstehsal Kommersiya" MMC və "Goran-Cotton" MMC tərəfindən, ümumilikdə cari məhsul ilində 1539,8 hektar sahədə pambıq becərilmişdir. Artıq bir neçə müddətdir məhsulun yığımına başlanılmışdır. 11.10.2023-cü il tarixdə rayon üzrə 557,2 ton pambıq məhsulu yığılaraq müvafiq pambıq məntəqələrinə təhvil verilmişdir.

Əvvəlki illərə nisbətən pambıq yığımında yüksək məhsuldarlıq gözlənilir.

***Goranboy Rayon Statistika İdarəsi***

# Daşkənddə Heydər Əliyevin 100 illiyinə həsr olunmuş səhiyyə forumu keçirildi

***Daşkənddə Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan və Özbəkistan səhiyyə nazirliklərinin təşkilatçılığı ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Özbəkistan-Azərbaycan Səhiyyə Dekadası" çərçivəsində Özbəkistan-Azərbaycan səhiyyə forumu keçirilib.***

"Unikal" xəbər verir ki, forumda hər iki ölkənin səhiyyə nazirliklərinin, Özbəkistanın aidiyyəti dövlət qurumlarının, tibb təhsil ocaqlarının nümayəndələri, Azərbaycanın Özbəkistandakı Fövqəladə və səlahiyyətli səfiri, alimlər, həkimlər iştirak ediblər. Forumun başlıca məqsədi hər iki ölkənin səhiyyə və tibb elmi sahəsində əldə olunan nailiyyətlər, tətbiq edilən innovasiyalar, səhiyyənin rəqəmsallaşdırılması, əhalinin sağlamlığının qorunması sahəsində görülən işlərin müzakirəsi və iki ölkənin həkim mütəxəssisləri arasında təcrübə mübadiləsi aparmaqdır.




Forumdan əvvəl Özbəkistanın səhiyyə naziri və tədbir iştirakçıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən foto sərgi və kitab kolleksiyası ilə tanış olublar.

Tədbirdə ilk öncə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti barədə film nümayiş etdirilib.

Forumun açılışında çıxış edən Özbəkistanın səhiyyə naziri Amrillo İnoyatov səhiyyə sahəsində əməkdaşlıq çərçivəsində iki ölkə arasında sıx tərəfdaşlığın olduğunu vurğulayıb.

"Bizim ölkələrimiz arasında münasibətlərin uğurlu davamı kimi Özbəkistanın paytaxtında türk dünyasının dahi oğlu Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Özbəkistan-Azərbaycan Səhiyyə Dekadası" keçirilib. Tədbir çərçivəsində Azərbaycan Səhiyyə Nazirliyinin həkim mütəxəssisləri özbəkistanlı həmkarları ilə birgə vətəndaşlar üçün mərhələli şəkildə yüksək texnoloji avadanlıqlar vasitəsilə 100-dən artıq cərahiyyə əməliyyatlar icra ediblər, müayinə və müalicələr aparıblar. Forum "Özbəkistan-Azərbaycan Səhiyyə Dekadası"nın nəticələrinə yekun vuracaq və iki ölkə arasında əlaqələri keyfiyyətcə yeni müstəviyə qaldıracaq", - deyə Özbəkistanın səhiyyə naziri qeyd edib.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı keçirilən səhiyyə forumunun iştirakçılarını salamlayan Azərbaycanın Səhiyyə naziri Teymur Musayev bildirdi: "2023-cü il ölkəmizdə adları Azərbaycan tarixinə qızıl hərflərlə yazılan iki böyük şəxsiyyətin - dahi siyasi xadim, müasir Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyevin və Azərbaycanın elm və təbabət tarixində silinməz izlər qoyan görkəmli alim və həkim, əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın 100-illik yubileyinin keçirilməsi ilə əlamətdardır".

Nazir həmçinin, 10 gün müddətində davam edən səhiyyə dekadasında gərgin zəhməti, yorulmaz qonaqpərvərliyi ilə qardaşlıq missiyasının təşkilinə verdiyi dəstəyə görə nazir Amrillo İnoyatova və Özbəkistan tibb ictimaiyyətinə təşəkkürünü ifadə edib.

Azərbaycan və Özbəkistanın Səhiyyə nazirlikləri arasında uğurlu əməkdaşlıq əlaqələri barədə danışan Teymur Musayev vurğuladı: "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi Daşkənd Həkimləri Təkmilləşmə İnstitutu, İxtisaslaşmış Göz Mikrocərrahiyyəsi Mərkəzi ilə sıx əməkdaşlıq edir. Azərbaycan Tibb Universiteti ilə Daşkənd Tibb Akademiyası, İbn Sina adına Buxara Dövlət Tibb İnstitutu arasında tibb elmi sahəsində əməkdaşlığı ehtiva edən Anlaşma Memorandumları imzalanıb".

"Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın uğurla rəhbərlik etdiyi Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətinin prioritetlərindən biri də məhz səhiyyə sahəsidir. Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü və iştirakı ilə Fond tərəfindən səhiyyənin inkişafı və tərəqqisi istiqamətində bir çox uğurlu layihələr həyata keçirilib"- deyə Teymur Musayev bildirib.

"Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2023-cü il Azərbaycan üçün Konstitusiya ilə müəyyən olunmuş ərazi bütövlüyü ilə bağlı hüquqların bərqərar olduğu il kimi tarixə yazılıb. Azərbaycan silahlı qüvvələrinin həm 44 - günlük Vətən müharibəsi, həm də bu ilin sentyabr ayının 19-da baş tutan anti-terror tədbirləri zamanı qazandığı möhtəşəm zəfər hər bir vətəndaşı qürurlandırıb. İşğaldan azad edilən əzəli Azərbaycan torpaqlarında qardaş ölkələr bərpa - quruculuq işlərində fəal iştirak edirlər" - deyə nazir vurğulayıb.

Müdrik dövlət rəhbəri Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyev rəhbərliyi altında bu gün həyata keçirilən genişmiqyaslı islahatların əhalinin sağlamlığının qorunmasına yönəldiyini bildirən nazir qeyd etdi: "Bu yanaşmanın davamıdır ki, Ulu Öndərin 100 illik yubileyi çərçivəsində Azərbaycanın peşəkar həkimlər Özbəkistanda qardaşlıq missiyasını uğurla icra ediblər. Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunan bu tədbir xalqlarımız arasında olan qardaşlıq bağlarını daha da möhkəmləndirib. Xoşməramlı missiyanın davamı olaraq qardaş Özbəkistanın 50 həkim və 50 orta tibb işçisinin ixtisasartırma təlimlərində iştirak və təcrübə mübadiləsi aparmaq məqsədilə Azərbaycana səfərini təklif edirəm".

Forumda çıxış edən, Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev qardaş ölkələr arasında ikitərəfli münasibətlər və əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib. Onun sözlərinə görə, hər iki ölkənin rəhbərlərinin qarşılıqlı səfərləri bu dostluğun bariz nümunəsidir.

Tədbirdə Heydər Əliyev Fondunun nümayəndəsi Şamil Əzizov Fondun genişmiqyaslı fəaliyyəti, o cümlədən səhiyyənin inkişafı sahəsində həyata keçirdiyi uğurlu layihələr barədə məlumat verib.

Forumun sonunda, Özbəkistan Respublikasında səhiyyənin inkişafında mühüm xidmətlər göstərən, "Özbəkistan-Azərbaycan Səhiyyə Dekadası" çərçivəsində cərrahiyyə əməliyyatları, tibbi müayinə və müalicələr aparan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin həkim mütəxəssislərinin və tədbir təşkilatçılarının mükafatlandırılması mərasimi keçirilib.

***Hüseyn İsgəndərov***

# Rayonlarda meliorativ tədbirlər davam etdirilir

***Zaqatala rayonunda selə qarşı mübarizə tədbirləri aparılır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2023-cü il üçün təsdiqlənmiş istismar tədbirləri planına uyğun olaraq Zaqatala Suvarma Sistemləri İdarəsi cari il ərzində rayon ərazisindən axan çaylarda selə qarşı mübarizə tədbirləri ilə əlaqədar çay yataqlarının, suvarma kanalların lildən təmizlənməsi və sahilbərkitmə işlərinin görülməsi davam edir.***

Ilin əvvəlindən Muxax çay sistemi üzrə 287 min kubmetr, Tala çayda 272, Bəkməz çayda 64 min, Micqar çayda 17 min, Qara çayda isə 7 min kubmetr məcra təmizləmə həyata keçirilib. Ümumilikdə Zaqatala rayonu ərazisindən axan çaylarda 647 min kubmetrdən artıq iş görülüb. Tala çayın sol sahilində Meşləş kənd avtomobil körpüsünü mühafizə edən 1 ədəd, Muxax çayın sağ sahilində Yuxarı Çardaxlar kəndini mühafizə edən 1 ədəd daş-beton bənd təmir edilib. Ümumi olaraq 235,2 kubmetr daş-beton bəndlərin təmiri həyata keçirilib. Hazırda idarə tərəfindən bütün çay sistemlərində bu işlər davam edir.

Zaqatala Suvarma Sistemləri İdarəsi selə qarşı mübarizə tədbirləri ilə bərabər suvarma suyunun əkin sahələrinə itkisiz olaraq çatdırılması vəzifəsini də həyata keçirir. Bu il suvarma kanallarında 228 min kubmetr lildən təmizlənmə işləri görülüb və suyun maneəsiz axını təmin olunub. Bundan başqa mənbəyi Muxax çaydan götürülən Zəyəm arx suvarma kanalının 90 paqonometr hissəsinin beton üzlüyə alınması, Pərzivan suvarma kanalının 40 paqonometrinin beton üzlüyə alınması da yerinə yetirilib.

Masallıda, kanallar və çaylarda 700 min kubmetr lildən təmizlənmə işləri aparılıb. Dilqəm Şərifov bildirib ki, Masallıda əkin sahələrinin suvarma mövsümü başa çatıb. Hazırda növbəti il üçün hazırlıq tədbirlərinə başlanılıb. Kanallardan lildən təmizlənmə işləri aparılır. 300 hektardan artıq əkin sahəsi suvarma su ilə təmin edilən boru xətti yenisi ilə əvəzlənir.

Masallıda suvarma mövsümü geridə qaldı. Suvarma suyunun ərazilərə maneəsiz verilməsi və izafi suları kənarlaşdırmaq üçün rayon ərazisində görülən işlər öz bəhrəsini verib. Masallı rayonunda 10 min 130 hektar əkin sahəsi Viləşçay su anbarı istismar idarəsinin balansında olan Viləşçay su anbarı, Babaser kiçik su anbarı, 37 kiçik su tutar və 67 subartezian quyuları ilə suvarma su ilə təmin olunub. 9892 hektar ərazilərə suvarma suyu birbaşa Viləşçay su anbarı vasitəsilə verilib.

Hal - hazırda rayonun Qarğalıq, Xırmandalı, Həsənli, Təklə, Şıxlar, Yeddioymaq, Qızılağac kəndlərindəki kanallarda, eləcə də Bədəlan, Boradigah və Viləş çaylarında lildən təmizlənmə işləri aparılır. Əkin sahələrinin vaxtı - vaxtında suvarılması nəticəsində fermerlər sahələrdən yüksək məhsuldarlıq əldə ediblər.

Qeyd edək ki, Masallıda sel, daşqın hadisələrinin baş verməməsi üçün öncədən qabaqlayıcı tədbirlər də görülüb. Suötürücü kanallarda lildən təmizlənmə işləri aparılmış, su buraxıcı qurğular təmir edilmişdir.

Laçın obalarında əkin sahələrinin suvarılması yaxşılaşdırılıb. Dilqəm Şərifov bildirib ki, 1990-cı ildə Ağcabədi rayonu ərazisində yaradılan hazırda fəaliyyətini davam etdirən Laçın Suvarma Sistemləri İdarəsinin əsas vəzifə və funksiyası rayonda olan əkin sahələrini suvarma suyu ilə təmin etməkdir. Bu məqsədlə idarə tərəfindən mütəmadi olaraq suvarma kanallarının lildən təmizlənməsi, torpaq məcralı kanalların beton üzlüyə alınması, balansda olan nasos



stansiyaların və hidrotexniki qurğuların təmir işləri davam edir. Rayonun ümumi ərazisi 32000 hektara yaxındır. Bundan suvarmaya yararlı sahələr 18510 hektar, 12600 hektar isə kənd təsərrüfatı əkinləri üçün istifadə olunur. Suvarma suyunun itkisiz olaraq əkin sahələrinə çatdırılması üçün Laçın Suvarma Sitemləri tərəfindən torpaq məcralı kanallar beton üzlüyə alınır. Hazırda bu işlər rayonun Fingə kəndində həyata keçirilir.

Gəlirləri əkinçilikdən çıxan fermerlər hər il müxtəlif növ kənd təsərrüfatı bitkilərinin əkini ilə məşğul olurlar. Onlar artıq taxılın suvarılmasını apararaq biçinini həyata keçiriblər. İndi isə payızlıq taxıl əkilib ki, hazırda həmin sahələrin suvarılması davam edir.

Suyun maneəsiz axınını təmin etmək üçün idarənin maşın-mexanizmləri ilə kanallarda mütəmadi olaraq lildən təmizləmə işləri aparılır. Bundan başqa balansda Kollektor-Dren şəbəkələri də mövcuddur. İlkin su yığıcı kanallar 10 km-ə yaxın, qapalı drenlər isə 10 km-dən uzundur. Kollektor-drenaj şəbəkələri də hazırda lildən təmizlənir və torpaqların şoranlaşmasının qarşısı alınır.

Qeyd edək ki, Laçın Suvarma Sistemləri İdarəsinin xidməti ərazisi relyefcə müxtəlifdir. Həmin ərazilər Qar-Qar çay və Kür çayları əhatəsindədir. Suvarma suyu öz axımı ilə Qarabağ-Laçın-Qayğı kanalından və mexaniki üsulla Kür çayından qaldırılaraq əkin sahələrinə verilir.

***Hüseyn İsgəndərov***

# Şəhid Röyadın müqəddəs arzusu...



***İkinci Qarabağ müharibəsində Vətən torpaqlarının azadlığı uğrunda qan tökən minlərlə qəhrəmandan biri də Masallı rayonu, Mahmudavar kəndində dünyaya göz açan Röyad Famil oğlu Məmmədovdur.***

Röyad 20 yaşında şərəfli ölümü ilə milyonların ürəyində özünə əzəmətli abidə ucaldıb. İndi Röyadın adı bütöv bir xalqın qəhrəmanlıq simvolunu dönüb. Həm də Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün bu, Vətən oğlu Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra «Vətən uğrunda", "Cəsur döyüşçü", eləcə Füzulinin, Xocavəndin, Şuşanın azadlığına görə medalları ilə təltif edilib.

Masalının Vətən sevdalı oğlu orta məktəbi 2018-ci ildə bitirib. Bakı şəhərində, Qərbi Kaspi Universitetinin nəzdində yaradılmış Qərbi Kaspi Kollecinə daxil olub. Bir ay burada təhsil aldığı vaxtda el təəssübünü çəkən, dünyanın xeyirxahlığına can atan, xalqına, Vətəninə sədaqətli bir oğul kimi ürəklərə yol alır. Məhz bu keyfiyyətlərinə görə erməni dığaların işğalı altında inləyən, əsir Qarabağın harayı onu rahat buraxmır. Odur ki, təhsilini yarımçıq qoyub yağı düşməndən qisas almaq məqsədilə ordu sıralarına yola düşür və 2020-ci ilin aprel ayına qədər Tovuz rayonunda yerləşən "N" saylı hissədə Azərbaycanın müqəddəsliyinə tapınmaqla onun keşiyində durur. Eləcə məqamı gələndə düşmənlə döyüşə getməyə tam hazır olur.

Minlərlə qeyrətli Vətən oğlunun arzusu 27 sentyabr 2020-ci ildə gerçəkləşir. Polad biləkli igidlər əlinə silah götürüb düşməndən əsir düşən Vətən torpaqların qisasını almaqdan ötrü ön cəbhədə haqq savaşımıza atılırlar. Röyad da ən ağır müharibə meydanlarında dəfələrlə düşmən üzərində qələbə qazanır . Füzulinin alınması uğrunda böyük hünər göstərir və düşmənin xeyli sayda canlı qüvvəsini məhv edir. Onun döyüş əzmi, qələbəyə yenilməz inamı Şuşa döyüşlərində də görünür. Vətənini canından əziz tutmaqla ölüm-dirim savaşında əsl cəngavər tək vuruşaraq dığalara ağır itkilərlə cavab verir. Noyabrın 8-də Laçından Şuşaya gedən yolu ələ keçirmək uğrunda son nəfəsinə qədər vuruşub, düşməndən qisasını alandan sonra şəhidlik zirvəsinə ucalır. Qalxdığı ali mərtəbədə şanlı qələbəmizlə ruhu şad olur. Elə Röyadın ən müqəddəs arzusu Vətən torpaqları azad görmək idi...

Bəli, Masallı camaatı heç zaman Vətən naminə canını qurban vermiş şəhid övladını unutmayacaq və zaman-zaman onun qisa, olduqca şərəfli həyat yolu gələn nəsillərə nümunə olacaq.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Nazir müavini Şəmkirdə vətəndaşları qəbul edəcək



***Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədovun imzaladığı əmrə əsasən, sentyabr ayından başlayaraq Nazirliyin vəzifəli şəxsləri tərəfindən bölgələrdə vətəndaş qəbulları keçirilir.***

"Unikal" xəbər verir ki, qəbul zamanı vətəndaşların Kənd Təsərrüfatı Nazirliyinin səlahiyyət dairəsinə aid məsələlərlə bağlı müraciətləri cavablandırılacaq, müraciətlərdə əksini tapan məsələlərin həlli ilə əlaqədar tədbirlər görüləcək. Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova oktyabrın 17-də, saat 10.00-da Şəmkir Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında vətəndaşları qəbul edəcək.

Vətəndaş qəbulunda iştirak etmək istəyən şəxslər Kənd Təsərrüfatı Nazirliyinin "Çağrı Mərkəzi"nə (1652) və Şəmkir Dövlət Aqrar İnkişaf Mərkəzinə (050-295-74-46) zəng etməklə qeydiyyatdan keçə bilərlər.

Qəbula gələn vətəndaşlar əvvəlcədən qeydiyyatdan keçməli və şəxsiyyətlərini təsdiq edən sənədləri özləri ilə gətirməlidirlər.

## "İslami Cihad"ın liderlərindən biri öldürüldü



***Fələstinin radikal "İslami Cihad" qruplaşmasının liderlərindən biri Abdel Rəhman Şehab öldürülüb.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb. O, Qəzza zolağının şimalındakı Cəbəliyə şəhərinə İsrailin hava zərbələri nəticəsində məhv edilib. Şehabla birlikdə onun ailəsi də öldürülüb. Əlavə məlumat verilmir.

***Ağarza***

## Rus səfir Çexiya XİN-ə çağırılıb

***Çexiya Xarici İşlər Nazirliyi Xarkov vilayətinin Qroza kəndinə hücumla əlaqədar Rusiya səfiri Oleksandr Zmeevskini çağırdığını açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Praqa Beynəlxalq Radiosu məlumat yayıb.

## HƏMAS-ın israilli uşaqların başlarını kəsməsi təsdiqləndi



***İsrail radikal Fələstin HƏMAS hərəkatının yaraqlılarının həftə sonu İsrail ərazisinə sızma zamanı uşaqları öldürüb başlarını kəsməsi ilə bağlı xəbərləri təsdiqləyir.***

"Unikal" BBC-yə istinadla xəbər verir ki, bunu İsrail Müdafiə Qüvvələrinin (İDF) sözçüsü Conatan Konrikus deyib.

Onun sözlərinə görə, uşaqların ölüm şəraiti ilə bağlı müvafiq məlumat var. "Bu hesabatı həqiqətən dərk etmək və təsdiqləmək bizə bir qədər vaxt apardı və hətta HƏMAS-ın belə bir vəhşilik edə biləcəyinə inanmaq çətin idi" , - deyə sözçü qeyd edib.

İsrail ordusu xarici jurnalistlərə HƏMAS-ın Kibbutz Kfar Aza hücumunun nəticələrini göstərib. Xilasedicilər evlərdə çoxlu cəsədin tapıldığını, bütün ailələrin həlak olduğunu bildiriblər. Hərbi hesablamalara görə, kibbutzda azı 40 uşaq həlak olub. Onlar jurnalistlərə bəzilərinin başlarının kəsildiyini də bildiriblər.

***Gülayə***

## "Almaniya İsrailin tərəfindədir" - Şolts

***"Almaniya Yaxın Şərqdəki münaqişədə yalnız İsrailin tərəfində mövqe tuta bilər".***

"Unikal" xəbər verir ki, bunu Almaniya kansleri Olaf Şolts Bundestaqda çıxışı zamanı deyib. Şolts, ölkənin özünü müdafiə edə bilməsi üçün İsrailin təhlükəsizliyinin bərpasının zəruriliyinə diqqət çəkib.

"Biz aydın şəkildə bildiririk ki, beynəlxalq hüquqa görə, İsrail özünü və vətəndaşlarını bu vəhşi hücumdan müdafiə etmək hüququna malikdir", - kansler Almaniya vətəndaşlarının HƏMAS girovları arasında olduğunu təsdiqləyib.

Həmçinin, o, Fələstin hakimiyyətinin HƏMAS-ın hücumuna aydın cavab verməməsini biabırçılıq adlandırıb.

## Qəzza zolağında həlak olanların sayı 1354 nəfərə çatıb

***İsrailin aviazərbələri nəticəsində Qəzza zolağında həlak olan fələstinlilərin sayı 1354 nəfərə çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə Qəzzada HAMAS tabeliyində fəaliyyət göstərən Fələstin Səhiyyə Nazirliyi məlumat yayıb.

Əlavə olaraq, 6 049 nəfərin isə yaralandığı qeyd olunub.

# "Brüssel bunu Azərbaycan və Ermənistana yükləyir" - Lavrov

***"Gözümüzün önündə dünyanın mədəni və sivilizasiya müxtəlifliyini əks etdirən yeni, daha ədalətli çoxqütblü dünya nizamı formalaşır. Gələcəyin konturları mübarizədə doğulur".***



"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov "BMT Nizamnaməsinin prinsiplərinə tam uyğunluq və qarşılıqlı asılılıq beynəlxalq sülh və sabitliyin açarıdır" başlıqlı məqaləsində bildirib.

XİN rəhbəri qeyd edib ki, "Kollektiv Qərb"in xarakterik cəhəti uzun müddətdir ki, bərabərlik prinsipindən imtina və onunla danışıqlar apara bilməməkdir: "Dünyaya yuxarıdan aşağı baxmağa öyrəşmiş "lider"-"izləyici" məntiqinə görə, amerikalılar və onların Avropa peykləri tez-tez yazılı və hüquqi qüvvəyə malik olan öhdəliklər götürürlər. Və sonra onlar sadəcə həyata keçirilmir. Prezident Vladimir Putinin qeyd etdiyi kimi, Qərb əsl "yalan imperiyasıdır". Bunu bir çox başqa ölkələr kimi biz də bilirik.

Nasist Almaniyası təslim olmamışdan əvvəl də, Ikinci Dünya Müharibəsindəki müttəfiqlərimiz Vaşinqton və Londonun SSRİ-yə qarşı hərbi əməliyyat planlarını necə hazırladığını, 1949-cu ildə isə ABŞ-ninn nüvə silahı işə salmaq planlarını necə hazırladığını xatırlamaq kifayətdir".

Lavrovun sözlərinə görə, indi Brüssel öz geosiyasi ambisiyalarını düşünür: "Öz "vasitəçilik xidmətlərini" Azərbaycan və Ermənistana yükləyir, bu da Cənubi Qafqazda sabitliyin pozulmasına gətirib çıxarır.

İrəvan və Bakı liderləri iki ölkənin suverenliyinin qarşılıqlı tanınması məsələsini həll edəndə, dinc həyatın və etimadın möhkəmlənməsinin vaxtı çatacaq. Rusiya sülhməramlı kontingenti buna hər cür töhfə verməyə hazırdır".

***Ağarza Elçinoğlu***

# Rəisi və Əsəddən müsəlman ölkələrinə çağırış

***İran prezidenti Ibrahim Rəisi müsəlman ölkələrinin İsrailə qarşı birləşməsinə və Fələstinə dəstək verməyə çağıraraq, fələstinlilərin hüquqları nəzərə alınmadan heç bir dünya nizamının formalaşa bilməyəcəyini vurğulayıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə suriyalı həmkarı Bəşər Əsədlə söhbətində deyib.

Həmsöhbətlər Fələstin xalqına dəstək üçün müsəlman və ərəb ölkələri arasında yaxınlaşma və əməkdaşlığa çağırıblar.

Rəisi İsrailin Fələstinə qarşı cinayətlərini pisləyərək deyib: "Sionistlər bütün beynəlxalq müqavilələrə zidd olaraq Qəzzanı tamamilə mühasirəyə alıblar və yalançı insan haqları iddiaçıları zalım və məzlumları dəyişmək üçün ikili standartlardan istifadə edirlər. Bu gün bütün İslam və ərəb ölkələri və dünyanın bütün azadlıqpərəstləri sionist rejimin məzlum Fələstin xalqına qarşı cinayətlərinə son qoymaq üçün ciddi yaxınlaşma və əməkdaşlığa nail olmalıdırlar. Buna uyğun olaraq, İran İslam Respublikası İslam ölkələrinin liderləri ilə əlaqə saxlamaqla bu koordinasiyaya ən qısa zamanda nail olmağa çalışacaq".



Əsəd də öz növbəsində konsensusun əldə edilməsi prosesini sürətləndirməyə çağırıb, çünki bu məsələdə irəliləyişin olmaması "sionist rejimini Qəzzə və fələstinlilərin məzlum xalqına qarşı yeni cinayətlər törətməyə təşviq edəcək".

***Gülayə Mecid***

# Putin Qırğızıstan prezidentini mükafatlandırdı

***Rusiya lideri Vladimir Putin Bişkekdə keçirilən görüşdə Qırğızıstan prezidenti Sadır Japarova "Şərəf" ordenini təqdim edib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya mətbuatı məlumat verib.

Putin qeyd edib ki, Cəfərov Rusiya Federasiyası ilə Qırğızıstan arasında strateji tərəfdaşlıq və müttəfiqliyin hərtərəfli inkişafı üçün çox işlər görüb.



"İcazə verin, sizi Rusiyanın "Şərəf" ordeni ilə təltif olunmağınız münasibətilə təbrik edirəm, sizə cansağlığı və hökumət fəaliyyətinizdə gələcək uğurlar arzulayıram", - Putin deyib.

Rusiya lideri vurğulayıb ki, Moskva ilə Bişkek arasında münasibətlər həmişə bərabərlik, qarşılıqlı hörmət və hər iki tərəfin maraqlarının nəzərə alınması prinsipləri əsasında qurulub.

***Gülayə Mecid***

# "Qarabağ ermənilərinin Ermənistanda qalması üçün hər şeyi edəcəyik" - Paşinyan

***Qarabağdakı soydaşlarımızın Ermənistan Respublikasında qalması üçün hər şeyi edəcəyik.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin bu gün keçirilən iclasında deyib.

"Bu, çox mühüm sənəddir, biz istəyirik ki, istisnasız olaraq hamı Ermənistan Respublikasında qalsın, yaşasın və işləsin və bizim siyasətimiz belə olacaq. Mən hər gün Qarabağdan olan ermənilərin neçəsinin Ermənistan Respublikasını tərk etdiyinin rəqəmlərini alıram, indiyə qədər 2500-ə yaxın adam Ermənistanı tərk edib", - deyə Paşinyan qeyd edib.

***Ağarza Elçinoğlu***

# "Trabzonspor"da yeni baş məşqçi

***Türkiyənin "Trabzonspor" komandası yeni baş məşqçisi Adullah Avcı ilə müqavilə imzalayıb.***

"Unikal" klubun rəsmi saytına istinadən xəbər verir ki, 60 yaşlı mütəxəssis ilə sözləşmənin şərtləri açıqlanmayıb.

O, bu vəzifədə yenicə istefaya göndərilmiş Nenad Byelitsanı əvəzləyib.

Qeyd edək ki, daha əvvəl 2020-cı ilin noyabrından 2023-cü ilin mart ayınadək "Trabzonspor"a başçılıq etmiş Abdullah Avcı bu müddət ərzində komandası ilə həm Superliqanın, həm də ölkə Superkubokunun qalibi olub.



# Bu klublar cərimələndi

***AFFA İntizam Komitəsi "Sumqayıt", "Sabah" və "Kəpəz" klublarını cərimələyib.***

"Unikal"ın məlumatına görə, "gənclik şəhəri" təmsilçisi "Kəpəz"ə 1:0 hesabı ilə qalib gəldiyi Premyer Liqanın IX turunun oyununda topdaşıyanın künc zərbəsi zamanı topu kənara atmasına görə 1500 manat ziyana düşüb.

Gəncə təmsilçisi 4 üzvü həmin qarşılaşmada sarı vərəqə aldığı üçün 700 manat ödəyəcək.

"Sabah" isə "Araz-Naxçıvan"la heç-heçə (1:1) etdiyi qarşılaşmada azarkeşlərin kütləvi şəkildə qeyri-etik ifadələr səsləndirməsinə (bu hal ikinci dəfə yaşandığı üçün) görə 500, matçın ardından meydana kənar şəxslər daxil olduğu üçün 500 manat cərimələnib.

Komitə "Turan Tovuz"a xəbərdarlıq edib. Buna səbəb bölgə klubunun fanatlarının "Zirə"yə 1:2 hesabı ilə uduzduqları görüşdə hakimin ünvanına kütləvi şəkildə qeyri-etik ifadələr işlətməsidir.

# "Mutu bir yol tapacaq" - "Neftçi"nin futbolçusu

***"Neftçi"nin macarıstanlı futbolçusu Mark Tamaş ölkəsinin nemzetisport.hu saytına açıqlama verib.***

Qol.az xəbər verir ki, 30 yaşlı müdafiəçi Misli Premyer Liqasının 9-cu turunda "Qarabağ"a uduzmaqları (0:2) haqda danışıb:

"Qarabağ" praktiki olaraq məqsədinə çatdı, 2 qol vurdu. Nə olursa-olsun, optimistəm. Çünki hələ mövsümün başlanğıcındayıq. Əvvəlki çempionat matçlarındakı kimi, bu dəfə də kifayət qədər qol şanslarımız oldu. Təəssüf ki, yenə imkanları dəyərləndirə bilmədik. Bəzən qapı dirəyinə zərbə vururuq, bəzən rəqibin qapıçısı belə topu necə qaytaracağını bilmir. Hücumçularımız effektli olsalar, turnir cədvəlində yuxarı pillələrə qalxmağa başlayarıq. Zərbələri qola çevirməməyimizin səbəbi ustalıq problemi və ya konsentrasiyanın olmaması deyil. Sadəcə, uğursuzluq zolağındayıq. Yenə də üzərimizdə çox çalışmağımız öz bəhrəsini verəcək. "Səbail"lə növbəti turun oyununda uğurlu seriyaya başlayacağımıza inanıram. Artıq həftələrdir bu problemlə mübarizə aparırıq. Yaranmış vəziyyət bizi hədsiz dərəcədə əsəbiləşdirir".

Tamaş komandanın baş məşqçisi Adrian Mutunun ona güvəndiyini vurğulayıb: "Əvvəlcə



Konfrans Liqasında, ardından isə çempionatda oynamaq şansı qazandım. Buna görə çox şadam. Son 3-4 görüşdə özümü gözlədiyim formada hiss etdim. Baş məşqçimiz Adrian Mutu mənə güvənir. Xoşbəxtlikdən klub rəhbərliyi də ona inanır. O, keçmiş zamanı məşhur hücumçusudur. Şübhəsiz ki, bizi daha effektli etməyin yolunu tapacaq. Bəlkə də hücumçularımız özünəinam hissi qazanmaq üçün məşqdə boş qapıya zərbələr vurmalı olacaqlar".

O, sonda Macarıstan millisinə dəvət almamasında da toxunub: "Yığmamız son vaxtlar sabit və uğurlu futbol göstərir. Təxmin etmişdim ki, milliyə əvət almayacağam. Yenə də adlar oxunanda insan öz adının səslənəcəyini gözləyir. Mənim yeganə vəzifəm yaxşı futbol oynamaq və əlimdən gələni etməkdir. Təslim olmayacağam. İndi məqsədim noyabr ayına hazır olmaqdır".

Qeyd edək ki, Mark Tamaş bu mövsümün əvvəlində "Neftçi" ilə 2 illik müqavilə imzalayıb. Onun komandası hazırda 12 xalla turnir cədvəlinin 5-ci pilləsində qərarlaşır.

# "Kəpəz" yeni futbolçu aldı

***"Kəpəz" yeni transfer həyata keçirib.***




Qol.az xəbər verir ki, bu barədə klubun yaydığı açıqlamada bildirilib. Gəncə təmsilçisi portuqaliyalı qapıçı İqor Rodriqesi heyətinə cəlb edib. Onunla bu mövsümün sonuna kimi müqavilə bağlanıb.

Qolkiperin son klubu ölkəsində "Feyrense" olub. 28 yaşlı qapıçı Portuqaliyanın tanınmış komandalarından olan "Benfika" ilə müqavilə bağlasa da, icarə əsasında "Şaveş", "Eştoril" və "Sportinq Kovilya" klubunda oynayıb.

# "Qarabağ" Toral Bayramova görə cərimələndi

***AFFA İntizam Komitəsi "Qarabağ" klubunu cəzalandırıb.***

Buna səbəb "Neftçi" - "Qarabağ" oyununda Ağdam komandasının futbolçusu Toral Bayramovun hərəkəti səbəb olub.

Onun formasının rəqəmləri fərqli olduğuna görə "Qarabağ" klubu 1000 manat cərimə edilib.

# UEFA Avro-2024-ün daha bir oyununu təxirə saldı

***UEFA Avro-2024-ün seçmə mərhələsində oktyabrın 15-i keçirilməsi planlaşdırılan Kosovo - İsrail matçını təxirə salıb.***

Bu barədə qurumun saytı məlumat yayıb. Qarşılaşmanın yeni tarixinin yaxın vaxtlarda açıqlanacağı vurğulanıb.

Oyunun təxirə salınması İsrail və Fələstin arasındakı müharibə ilə bağlıdır.

Qeyd edək ki, bundan əvvəl UEFA bu gün oynanılmalı olan İsrail - İsveçrə görüşünü təxirə salmışdı.

# Dünya birinciliyinə 12 şahmatçı ilə...

***Oktyabrın 14-də Misirdə şahmat üzrə 8, 10 və 12 yaşlı oğlan və qızlar arasında dünya birinciliyinə start veriləcək.***

Qol.az xəbər verir ki, 80 ölkənin təmsil olunduğu yarışda Azərbaycanı 12 şahmatçı təmsil edəcək. Bunlar Xaqan Əhməd, Paşam Əlizadə, Səfa Hümmətov, Atilla Orman, Məhəmməd Kazımzadə, Müslim Şirəliyev, Səadət Bəşirli, Əsnad Vəliyeva, İnci Ələkbərli, Məryəm Abbaszadə, Əsnad Baxşızadə və Mehriban Əhmədlidir.

Azərbaycan nümayəndə heyətinə beynəlxalq qrossmeyster Fərid Abbasov rəhbərlik edəcək.

Dünya birinciliyi oktyabrın 27-də başa çatacaq.

# Rusiyalı futbolçu faciəli şəkildə öldü

***Rusiyanın "Uralts TS" komandasının futbolçusu 33 yaşlı Yevgeni Sitnikov faciəli şəkildə dünyasını dəyişib.***

"Unikal" Rusiya mətbuatına istinadən xəbər verir ki, o, Perm - Yekaterinburq avtomobil yolunda qəzaya düşüb. Sitnikovla birlikdə maşında "Uralts TS"nin digər oyunçuları Kirill Koçetov, Kirill Mulnikov və Denis Fedoroçev də olub.

Hazırda xəstəxanada olan Koçetovun vəziyyəti ağırdır.

# Saka "Arsenal"da hamını qabaqladı

***İngiltərənin "Arsenal" klubunda sentyabr ayının ən yaxşı oyunçusu müəyyənləşib.***

"Unikal" xəbər verir ki, azarkeşlər arasında keçirilən sorğuda Bukayo Saka ən yaxşı seçilib. O, ötən ay 3 qol vurub, 3 qolun ötürməsini verib.

8 turdan sonra "Arsenal" Premyer Liqanın turnir cədvəlində 20 xalla 2-ci pillədə qərarlaşıb.